# Təhsil Tələbə Krediti Fondunun fəaliyyəti ilə bağlı:

# İCTİMAİ-SOSİAL TƏHLİL

*İctimai rəy sorğusu və*
*sosioloji tədqiqatın nəticələri*
*əsasında hazırlanmışdır*

Bakı – 2023

**Analitik hesabatın tədqiqat qrupunun rəhbəri:**

**Allahverdi Nadiroğlu**

**Tədqiqat qrupunun üzvləri:**

**Nadir Şəfiyev**

**Məmmədağa Babayev**

**Ünvan:** Bak şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 17, mənzil 38

**İnternet ünvanı:** www.prima.az

**Telefon:** (+994 55) 251 69 00

**E-poçt:** office@prima.az

**Çapa imzalanıb:** 20.12.2023

**Fiziki çap vərəqi:** 57

**Tiraj:** 10

# XÜLASƏ

Təhsil Tələbə Krediti Fondunun təşəbbüsü ilə “Prima Consulting” şirkəti tərəfindən həyata keçirilən bu ictimai-sosioloji sorğu layihəsi Fondun fəaliyyəti, məmnunluq və əlçatanlığı ilə bağlı aparılan tədqiqatlar sırasında ilklərdən hesab edilə bilər.Təqdim edilən analitik hesabatda təhsil tələbə kreditinin verilməsində mövcud vəziyyət, beynəlxalq təcrübə və perspektivlərin öyrənilməsinin nəticələri öz əksini tapıb.

Tədqiqatda TTK-dən-dan yararlanmış tələbələrin, onların valideynlərinin, təhsil müəssisələrinin əməkdaşları, eləcə də ölkəmizdə müxtəlif sahələrdə fəaliyyət göstərən bir sıra ekspertlərin fikirləri, təklifləri və tövsiyələri yer alıb.

Çap edilmiş

“Təhsil Tələbə Krediti Fondunun fəaliyyəti ilə bağlı:

İCTİMAİ-SOSİAL TƏHLİL”

adlı vəsaitə görə məsuliyyəti

“Prima Consulting” daşıyır

**“Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək. Biz görürük ki, iqtisadi sahədə, sənaye sahəsində, hərbi sahədə texnologiyalar nə qədər inkişaf edir. O texnologiyaların sahibləri bu gün dünyada da söz sahibləridir. Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza möhkəmlənir, təhsilin keyfiyyəti yaxşılaşır. Bu sahəyə investisiyalar qoyulur, insan kapitalına investisiyalar qoyulur ".**

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

# MÜNDƏRİCAT

**GİRİŞ**

**Gələcəyə yatırılan sərmayə**

**I HİSSƏ. TƏDQİQATIN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ**

**1.1.Tədqiqatın metodoloji prinsipləri**

**II HİSSƏ. İCTİMAİ RƏY SORĞUSUNUN ƏSAS NƏTİCƏLƏRİNİN TƏHLİLİ**

**2.1. Təhsil tələbə kreditindən yararlanmış və hal-hazırda təhsil alan 10 min tələbə arasında keçirilən anket sorğusunun nəticələri**

**2.2. Təhsil tələbə krediti almış və məzun olmuş 2 min tələbə arasında keçirilən anket sorğusunun nəticələri**

**III HİSSƏ. FOKUS-QRUP DƏYƏRLƏNDİRMƏNİN ƏSAS NƏTİCƏLƏRİNİN TƏHLİLİ**

**3.1. Paytaxt və bölgələrdə təhsil tələbə krediti almış tələbələrin valideynləri, vətəndaşlar və təhsil müəssisənin əməkdaşları ilə birgə təşkil edilən fokus-qrup dəyərləndirmənin nəticələri**

**IV HİSSƏ. KEYFİYYƏT ƏSASLI TƏHLİL**

**4.1 Ekspertlərlə keçirilən müsahibələrin nəticələri**

**V HİSSƏ. TƏDQİQATIN YEKUNU**

**5.1 Tövsiyələr**

# GİRİŞ

**“Hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır.”**

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bu gün Azərbaycan bütün istiqamətlərdə sürətli inkişaf yolunda inamla irəliləyir. Azərbaycan dövlətçiliyini yalnız iqtisadi, siyasi, hərbi, hüquqi və s. təməllər üzərində deyil, həm də ilk növbədə təhsil üzərində qurur. Təbii ki, hər bir inkişafın təməlində insan kapitalı, onun əsasında isə təhsil dayanır. Çünki hər bir dövlətin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Güclü təhsil həm də güclü dövlət deməkdir. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas strateji istiqamətlərindən biri və bəlkə də ən başlıcasıdır.

Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı

sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Prezident İlham Əliyevin “Uşaqlar yaxşı məktəblərdə oxumalıdırlar, müəllimlər yaxşı məktəblərdə dərs deməlidirlər” fikri əsasında ölkəmizdə ən müasir standartlara cavab verən təhsil müəssisələrinin yaradılması istiqamətində işlər aparılır. Hətta son iki ildə pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, bu məsələ diqqətdən kənarda qalmadı.

Müstəqilliyinin otuzuncu ildönümündə Azərbaycan yeni tarixi mərhələyə - Qarabağın azad edilməsi ilə başlayan Zəfər salnaməsinin yazıldığı dövrə qədəm qoyub. Azərbaycanda “Böyük Qayıdış” strategiyasının həyata keçirilməsi ilə işğaldan azad edilmiş ərazilərdə sürətli bərpa və quruculuq işləri aparılır. Bu layihələr təhsildən də yan keçmir. Azad olunmuş ərazilərdə yeni və müasir təhsil ocaqlarının tikintisi işlərinə start verilib.

Təhsilin inkişafı ilə bağlı dövlət başçısının təsdiq etdiyi müvafiq dövlət proqramları hazırda Azərbaycan hökuməti tərəfindən uğurla icra edilir. Bu proqramlar orta məktəblərdə kurikulum, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, Azərbaycanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası və s. sahələri əhatə edir.

Ümumiyyətlə, son illər ərzində təhsil sahəsinə ayrılan böyük vəsaitlər hesabına bütün tədris müəssisələrinin maddi-texniki təminatı xeyli dərəcədə yaxşılaşıb. Bütün ali məktəblərin müasir texnika və avadanlıqlarla təchiz olunması üçün xeyli iş görülüb. Bu da, şübhəsiz, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir.

Əlbəttə ki, görülən bu işlər və qarşıya qoyulan strateji hədəflər Azərbaycan təhsilinin parlaq gələcəyindən xəbəb verir. Buisə onu deməyə əsas verir ki, təhsil sahəsində islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə və yeni keyfiyyətdə uğurla davam etdirilir və bu sahədə atılan genişmiqyaslı addımlar ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə və nəhayət etibarilə, Azərbaycan dövlətinin sürətli inkişafında əsaslı baza rolunu oynayır.

# GƏLƏCƏYƏ YATIRILAN SƏRMAYƏ

Bütün bu inkişafla bərabər təbii ki, bəzi problemlər də var. Azərbaycan tələbələrinin bir hissəsi dövlət sifarişi hesabına, bir hissəsi öz hesabına oxuyur. Ölkədə fəaliyyət göstərən bir sıra ali təhsil müəssisələrində illik təhsil haqqı yüksək olduğu üçün əksər aztəminatlı ailələr övladlarını təhsildən yayındırmağa məcbur olurlar. Çünki qiymətlərin çox yüksək olması ödənişi onlar üçün əlçatmaz edir. Ödənişli təhsilin digər çətinliyi isə tələb olunan məbləğin vaxtında ödənməməsidir. Ödənişli təhsilin digər çətinliyi isə tələb olunan məbləğin vaxtında ödənməməsidir. Belə olduğu halda pulu ödəməyən tələbə isə semestr imtahanına buraxılmır, diplom ala bilmir və s. problemlərlə üzləşir.

Bu kimi problemlərin aradan qaldırılması, əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə Prezident İlham Əliyev 2021-ci il iyunun 17-də “Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Fərman imzaladı. Bu həm təhsil almaq istəyənlər üçün bərabər imkanların yaradılması, həm də iqtisadi inkişafın sürətləndirilməsi baxımından olduqca mühüm addımdır. Fondun fəaliyyətinin əsas məqsədi təhsil tələbə krediti sistemini tətbiq etməklə, bütün tələbələrin sosial vəziyyətini dövlət dəstəyi vasitəsilə ən yüksək səviyyədə optimallaşdırmaq və tələbələrin təhsillə bağlı xərc problemlərini aradan qaldırmaqdır. Bu sistem ödənişli əsaslarla əyani təhsil alan tələbələrin sosial qayğısını təmin etməklə bərabər, təhsil alan digər tələbələrin də bir çox məsrəflərini aradan qaldırmaqda mühüm rol oynayacaq.

## TƏHSİL TƏLƏBƏ KREDİTİNDƏN KİMLƏR YARARLANA BİLƏR?

Təhsil Tələbə Krediti Fondundan özəl və dövlət ali məktəblərinin tələbələrinin kredit götürməsində heç bir fərq və ya məhdudiyyət yoxdur. Ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsində əyani təhsil alan ödənişli tələbələr TTK almaq hüququna malikdirlər. Müraciət üçün əsas şərt isə tələbənin əyani təhsil alması, qiymətlərinin yüksək olmasıdır. Həm bakalavr təhsili, həm də magistr təhsili alanlar bu imkandan yararlana bilərlər. Kredit yalnız ölkədə Qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərən təhsil müəssisələrində təhsil alan Azərbaycan vətəndaşları üçün nəzərdə tutulub.

Təhsil tələbə kreditindən istifadə edərkən əvvəlcə tələbənin qəbul olma balı, daha sonra hər semestr ortalama balı nəzərə alınır. Tələbələr fonda hər semestr müraciət etməlidirlər.

Onu da qeyd edək ki, bu kreditlər hər tədris ili üçün ayrılıqda ödənilir. Təhsil Tələbə Krediti Fondunun kreditləri tələbənin özünə deyil, təhsil müəssisəsinə ödənilir. Bu da öz növbəsində universitet üçün 70-80 faiz daimi maliyyə dayanıqlığı deməkdir.

## TƏHSİL TƏLƏBƏ KREDİTİNİN HANSI NÖVLƏRİ VAR?

Təhsil tələbə kreditlərin verilməsi, əsasən, iki formada həyata keçirilir. Biri sosial, digəri isə standart formada.

Sosial təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr yararlana bilərlər. Buraya sırf maddi imkanları zəif olan, dövlətdən müəyyən yardımlar alan, aztəminatlı ailələrdən olan tələbələr daxildir. Yəni, sosial təhsil tələbə kreditindən ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, yəni üçüncü qrup əlilliyi olan şəxslər, ailə başçısını itirməyə görə əmək pensiyası alanlar, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edərək “Müharibə veteranı” adı almış şəxslər, hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs)

orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, yəni birinci və ya ikinci qrup əlilliyi olan şəxslər, işsiz kimi qeydiyyatda olanlar, yaşa görə əmək pensiyası alanlar, yaşa görə sosial müavinət alanlar yararlana bilirlər.

Bu qrupa aid olmayan digər tələbələr - birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbə qəbulu imtahanında toplanan ümumi balın Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olanlar yararlana bilər. Cari tarix üçün bu hədd bakalavriat səviyyəsi üçün 250 bal, magistratura səviyyəsi üçün 50 bal, orta ixtisas təhsili pilləsi üçün 110 bal, peşə təhsili pilləsi üçün attestata müvafiq fənlər üzrə yazılmış yekun qiymətlərin ədədi ortasının minimal həddi 3 bal olaraq müəyyən edilmişdir. Həmçinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə, birinci tədris ilinin ilk semestri (yarımili) üçün standart TTK-ya müraciət edənlərə münasibətdə müəyyən edilən minimal həddin bakalavriat səviyyəsi üçün DİM-in keçirdiyi 11-ci sinif buraxılış imtahanlarının nəticəsi üzrə 100 bal, magistratura səviyyəsi üçün qəbul imtahanının nəticəsi üzrə 30 bal müəyyən edilmişdir. Digər semestrlər (yarımillər) üçün ÜOMG-si 71 bal və yuxarı olanlar (peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə yüksək texniki peşə təhsili səviyyəsində aralıq qiymətləndirmə balı 71 bal və yuxarı olanlar, texniki peşə təhsili səviyyəsində isə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən 4 və 5 olanlar və illik təhsil haqqı xərcinin ən azı 20 faizini ödəyənlər standart növ TTK-dan istifadə edə bilər.

Təhsil tələbə krediti istehlak kreditlərindən fərqlidir. Əgər istehlak kreditində faizlər iki rəqəmli olursa, burada faiz dərəcəsi çox cüzi və simvolikdir. Faizlər sosial paket üzrə illik 2%, standart paket üzrə isə illik 6%-dir. Təhsilin normativ müddətində, güzəşt və möhlət dövründə kreditə faiz hesablanmır və kreditin qaytarılması tələb olunmur. Tələbə krediti məzun olduqdan və güzəşt dövrü bitdikdən sonra qaytarır.

## TTK-danYARARLANAN TƏLƏBƏLƏRƏ HANSI GÜZƏŞTLƏR EDİLİR?

Bu kredit kommersiya xarakteri daşımır. Tələbə təhsilini bitirdikdən sonra 20 ilə qədər müddətdə bu krediti ödəyə bilər. TTK-nın geri qaytarılma müddəti tələbənin təhsil pilləsindən və təhsil səviyyəsindən asılıdır. Beləliklə, ali təhsil pilləsinin bakalavriat

səviyyəsində təhsil alan tələbələr aldıqları kreditləri 14-22 il, magistratura səviyyəsində təhsil alan tələbələr 12-18 il, orta ixtisas təhsil pilləsində və subbakalavr səviyyəsinin tələbələri isə 12-19 il ərzində ödəyə biləcəklər. Tələbə təhsil illərində aldığı krediti məzun olduqdan və güzəşt dövrü bitdikdən sonra qaytaracaq. Təhsilin normativ müddətində, güzəşt və möhlət dövründə kreditə faiz hesablanmır və kreditin qaytarılması tələb olunmur.

Kreditə görə faizlərin hesablanmasında və kreditin qaytarılmasında təhsilin nəticələrindən asılı olaraq həm sosial, həm də standart paketlər üzrə bir sıra güzəştlər tətbiq olunur. Bu güzəştlər tələbələri daha yaxşı oxumağa sövq etmək və bütövlükdə təhsilin keyfiyyətini artırmağı nəzərdə tutur.

Sosial kreditlər paketi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 71 bal və yuxarı olan tələbəyə müvafiq tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır. Təhsil dövründə bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbələr təhsil müddətində aldığı kreditin 50 faizi hissəsinin ödənişindən azad olunurlar.

Standart təhsil tələbə kreditindən yararlananlar üçün ÜOMG-si 91 bal və yuxarı olan tələbəyə müvafiq tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır. Təhsil dövründə bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbələr təhsil müddətində aldığı təhsil tələbə kreditinin 25 faizi hissəsinin ödənişindən azad olunurlar.

## TTK-ya NECƏ MÜRACİƏT ETMƏK OLAR?

TTK üçün müraciət etmək istəyən tələbənin yaşı 18-dən aşağı olduqda valideynləri və ya himayəçisi ilə biryerdə, yaşı 18-dən yuxarı olduqda isə özü notarial xidmətə yaxınlaşaraq, bir sıra razılıqları ərizəsi ilə təsdiq etməlidir. Daha sonra tələbə kredit almaq hüququnun müəyyənləşdirilməsi üçün “e-TTKf.edu.az” portalına daxil olur. Portala giriş identifikasiya nömrəsi, “Asan İmza” və “E-imza” ilə mümkündür. Tələbənin kredit almaq hüququ elektron qaydada müəyyən edilir və kredit müvəkkil bank tərəfindən verilir. Bunun üçün kredit almaq hüququ olan tələbənin müraciət zamanı qeyd etdiyi smart telefon

nömrəsinə bank tərəfindən SMS vasitəsilə müvafiq link və birdəfəlik şifrə (OTP) göndərilir. Tələbə linkə keçid etdikdən sonra müvafiq OTP şifrəni daxil edir. Bu zaman müvəkkil bankın üz tanıma sistemi işə düşür və bu sistem vasitəsilə müştəri eyniləşdirilir. Müvafiq məlumatlar tələbə tərəfindən sistemdə təsdiq edildikdən sonra kredit müqaviləsi və kreditin sığorta müqaviləsi rəsmiləşdirilir, təhsil haqqı təhsil müəssisəsinə köçürülür.

Tələbə kreditin verilməsi ilə bağlı hər bir status dəyişikliyi barədə məlumatı SMS vasitəsilə izləyə bilir.

## TTK-nın VERİLMƏSİ İLƏ BAĞLI YENİ QAYDALAR VƏ DƏYİŞİKLİKLƏR QƏBUL EDİLİB

Təhsil Tələbə Krediti Fondunun Himayəçilik Şurası tərəfindən bir sıra qaydalara dəyişikliklərin edilməsi ilə bağlı qərar qəbul edilib:

- Birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbələrin standart təhsil tələbə krediti almaq hüququnu müəyyən edən tələbə qəbulu imtahanında toplanan ümumi balın bakalavriat səviyyəsi üçün 300 baldan 250 bala salınmışdır;
- Bakalavriat səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə, birinci tədris ilinin ilk semestri (yarımili) üçün standart TTK-ya müraciət edənlərə münasibətdə qəbul balının aşağı həddi 250 baldan 100 bala salınmışdır;
- Magistratura səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə, birinci tədris ilinin ilk semestri (yarımili) üçün standart TTK-ya müraciət edənlərə münasibətdə qəbul balının aşağı həddi 50 baldan 30 bala salınmışdır;
- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edərək “Müharibə veteranı” adı almış şəxslər və ailə başçısını itirməyə görə əmək pensiyası alan şəxslər sosial TTK-dən istifadə etmək hüququna malik şəxslərin siyahısına əlavə olunmuşdur;
- Peşə təhsili pilləsinin texniki peşə təhsili səviyyəsində əyani və ödənişli təhsil alan tələbələrə təhsil tələbə kreditlərindən istifadə etmək hüququ verilmişdir.

Bir sıra digər təkliflər ilə bağlı Fondun Himayəçilik Şurasında qərarlar qəbul edilmiş və müvafiq dəyişikliklərin edilməsi ilə bağlı Nazirlər Kabinetinə təqdim edilmək üçün hazırlıq işləri aparılır.

Xatırladaq ki, artıq 35 min 951 tələbə TTK-ya müraciət edib. 26 min 402 müraciət rəsmiləşdirilib ki, onlardan 9 min 551sosial, 16 min 851 isə standart kreditdir.

**TT üçün müraciətlər üzrə ümumi statistik bölgü**

| Müraciət dövrü | Müraciət sayı | | | Rəsmiləşdirilmiş müraciətlər | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın |
| 2021/2022 I semestr | 5677 | 2919 | 2758 | 2899 | 1296 | 1603 |
| 2021/2022 II semestr | 4945 | 2259 | 2686 | 3939 | 1745 | 2194 |
| 2022/2023 I semestr | 7915 | 3387 | 4528 | 6002 | 2531 | 3471 |
| 2022/2023 II semestr | 7639 | 3252 | 4387 | 6728 | 2772 | 3956 |
| 2023/2024 I semestr (müraciət davam edir) | 9775 | 3890 | 5885 | 7104 | 2724 | 4380 |
| **YEKUN** | **35951** | **15707** | **20244** | **26672** | **11068** | **15604** |

İstənilən dövlətin inkişafının göstəricisi onun təhsilinin səviyyəsindən asılıdır. Bu prosesdə ali məktəb tələbələrinin sayı çox önəmlidir. Ali təhsilin ödənişli olması təhsili əlçatan etmirdi. Çoxlu savadlı gənc ali təhsildən kənarda qalırdı. Qarşıda iki yol var idi: Ya valideynlər olan-olmazını satıb uşaqların təhsil haqqını ödəməli idilər, ya da gənc növbəti illəri gözləməli və ya təhsildən uzaqlaşmalı idi. Artıq təhsil tələbə krediti hesabına belə gənclərin təhsil haqqı problemi aradan qalxacaq. Onlar daha təhsildən uzaqlaşmaq məcburiyyətində olmayacaqlar.

# TƏDQİQATIN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Yaşadığımız yüzilliyin xüsusiyyətlərindən irəli gələn, bəşər həyatında mürəkkəbliyi, çoxşaxəliyi və planetar miqyası baxımından ortaya çıxan yeni çağırışların gündən-günə çoxalması təhsilə də əks-sədasını verir. Tədqiqatın məqsədi TTK-nın verilməsi sahəsində mövcud vəziyyətin dərindən öyrənilməsi ilə bu sahədə görülən işlərin daha da təkmilləşdirilməsinin yollarını müəyyənləşdirməkdir. Tədqiqat çərçivəsində respondentlərə ünvanlanan, bütövlükdə cəmiyyəti narahat edən sualların cavablandırılması aşağıdakı məqsəd və vəzifələrin yerinə yetirilməsinə xidmət edib.

## TƏDQİQATIN VƏZİFƏLƏRİ:

- Tələbə və valideynlərin TTK barədə nə dərəcədə məlumatlı olduğunu müəyyənləşdirmək;
- Təhsil işçilərinin TTK haqqında fikirlərini öyrənmək;
- Qlobal miqyasda baş verən sosial inqilab və radikal transformasiyaların cəmiyyətə təsiri fonunda ölkəmizdə təhsil tələbə krediti sahəsində müşahidə edilən dinamika və tendensiyaların öyrənilməsi, sosioloji təhlil əsasında aşkara çıxarmaq;
- Ekspertlərin dünya təcrübəsinə arxalanaraq verdikləri təklifləri ümumiləşdirmək;
- Azərbaycanda TTKF-nin mövcud fəaliyyəti ilə bağlı ictimai münasibəti öyrənmək, səmərəliliyinin, vətəndaş məmnunluğunun və əlçatanlığın sonrakı inkişaf vektorlarını, təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini müəyyənləşdirmək.

TTK-dan yararlanaraq hal-hazırda təhsil alan tələbələrin və məzun olan şəxslərin, onların valideynlərinin, təhsil müəssisəsi əməkdaşlarının, vətəndaşların və ölkəmizdə müxtəlif sahələrdə fəaliyyət göstərən ekspertlərin iştirakı ilə keçirilən ictimai rəy sorğusunun nəticələrini əks etdirən analitik hesabatda Təhsil Tələbə

Krediti Fondunun formalaşması, təkamülü və inkişaf dinamikası ilə bağlı proseslərin qısa dəyərləndirilməsi əksini tapıb. Sorğuda öyrənilən məsələlərdən bəziləri aşağıdakılardır:

- Əhalinin təhsil tələbə krediti haqqında məlumatlılığı;
- Əhalinin təhsil tələbə kreditindən faydalanması;
- Təhsil tələbə krediti sahəsində göstərilən xidmətlərdən əhalinin məmnunluğu;
- Təhsil tələbə krediti sahəsində göstərilən xidmətlər zamanı narazı qalınan məsələlər;
- Təhsil tələbə kreditinin tətbiqindən sonra əhalinin təhsil haqqı ilə bağlı maliyyə yükündəki dəyişiklik;
- Təhsil tələbə krediti sahəsində təkmilləşdirmə ilə bağlı təkliflər.

## TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

Təhsil Tələbə Kredit Fondunun fəaliyyəti ilə bağlı ictimai sorğunun təşkilində müasir metodoloji prinsip əsas götürülüb. Sosial araşdırmalarda tədqiqat subyektinə mütəxəssis baxışı əldə etmək üçün ekspert sorğularından da istifadə edilib.

Sorğu nəticələrinin kəmiyyət və keyfiyyət aspektlərinin ümumiləşdirilməsi problemin qoyuluşuna həm respondent, həm təhsil müəssisələrinin əməkdaşları, TTK-dan yararlanan tələbələrin valideynləri, vətəndaşlar, həm də mütəxəssis münasibətlərinin müqayisəli təhlili əsasında daha dolğun qənaət və tövsiyələrə gəlməyə imkan yaradır. Ekspert rəylərinin əldə edilməsi üçün 20 ekspert-respondentlə (təhsil, sosial, qeyri-hökumət təşkilatlarının və dövlət qurumlarının nümayəndələri) əhatəli müsahibələr həyata keçirilib. Müxtəlif sahələrdə çalışan və ixtisaslaşan ekspertlər qrupu ilə müsahibələrin aparılması TTK ilə bağlı məsələlərin çoxsaylı cəhətlərinə və problemlərinə müxtəlif baxış bucaqlarının öyrənilməsinə, səlahiyyətli şəxslərdən götürülmüş təfərrüatlı

məlumatlar isə hesabatın nəticələrinin zənginləşməsinə və tövsiyələrin əsaslandırılmasına mühüm töhfə verib. Ekspertlərlə aparılan müfəssəl müsahibələr tədqiq edilən sahənin dərinlik dərəcəsini müəyyənləşdirməyə imkan yaradıb.

Müxtəlif sahələr üzrə toplanmış məlumatların etibarlılığını və mötəbərliyini təmin etmək məqsədilə tədqiqat qrupu kəmiyyət sorğusu vasitəsilə əldə olunmuş məlumatları keyfiyyət əsaslı məlumatların təhlilindən əldə edilmiş nəticələrlə "trianqulyasiya" prizmasında istifadə edib. Sosial elmlərdə "trianqulyasiya" eyni nəticələrin, göstəricilərin müstəqil, obyektiv yoxlanılması üçün bir neçə metodun tətbiqi ilə təhlil edilməsidir.

Analitik hesabat TTK-dan yararlanaraq hal-hazırda təhsil alan tələbələr və məzun olan şəxslər arasında aparılan anket sorğusu, həmçinin TTK-dan istifadə edən tələbələrin valideynləri, təhsil müəssisələrinin əməkdaşları, vətəndaşlar və müxtəlif sahələrdə fəaliyyət göstərən ekspertlər arasında keçirilən fokus-qrup dəyərləndirmənin nəticəsi olaraq hazırlanıb. Burada, onların Fondun fəaliyyətinin inkişaf etdirilməsi, səmərəliliyinin və vətəndaş məmnuniyyətinin artırılması istiqamətində maraqlı fikirləri yer alıb. Problemlərdən çıxış yolları açıqlanıb, beynəlxalq təcrübəyə əsaslanaraq fəaliyyətin daha da şaxələndirilməsi qeyd olunub.

***Ekspert sorğusunun nəticələri "Keyfiyyət əsaslı təhlil" bölməsində yerləşdirilib.***

## TƏDQİQATIN COĞRAFİ ƏHATƏSİ

Anket sorğusu və fokus-qrup dəyərləndirmə Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Şəki, Mingəçevir, Naftalan şəhərlərində, Quba, Şamaxı, Cəlilabad, Salyan, Saatlı, Bərdə, Şəmkir, Qazax, Qəbələ, Zaqatala, Qax və Xaçmaz rayonları da daxil olmaqla, bütün ölkə ərazisini əhatə edib. Anket sorğusu TTK-dan yararlanan və hal-hazırda təhsil alan 10 min tələbənin, eləcə də TTK-dan istifadə edib və məzun

olan 2 min nəfərin iştirakı ilə aparılıb. Həmçinin, reallaşdırlan 31 fokus-qrup dəyərləndirmə çərcivəsində 20-si ekspert olmaqla, ümumilikdə 700 nəfərin fikri və rəyi qeydə alınıb.

## RESPONDENTLƏRİN SEÇİMİ

Sorğular Təhsil Tələbə Krediti Fondu tərəfindən təqdim edilmiş təhsil tələbə kreditindən yararlanmış tələbələrin siyahısından istifadə olunmaqla, vətəndaşlar üzrə isə təsadüfi addım seçimi metodologiyasından istifadə olunmaqla həyata keçirilib. Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin ehtimal ölçüyə mütənasib çoxpilləli klaster seçməsindən istifadə edilib ki, bu da hər bir respondentə bərabər səviyyədə iştirak imkanı verib.

## TƏDQİQAT METODU

Tədqiqatın aparılmasında kəmiyyət metodologiyası çərçivəsində tələbələrlə anket sorğusu, keyfiyyət metodologiyası çərçivəsində isə hədəf qrupuna daxil olan TTK-dan yararlanan və hal-hazırda təhsil alan, TTK-dan faydalanan və məzun olan, TTK-dan istifadə edən tələbələrin valideynləri, təhsil müəssisələrinin nümayəndələri, vətəndaşlar və müxtəlif sahələrdən olan mütəxəssislərlə müfəssəl müsahibə-məlumat toplama metodundan istifadə edilib.

## SORĞU ANKETİ

Sorğu anketinin sualları mövcud vəziyyət nəzərə alınmaqla yanaşı, beynəlxalq təcrübəyə istinadən hazırlanıb. Sorğu anketi 23 (TTK-dan yararlanmış və hal-hazırda təhsil alan 11, TTK-dan yararlanmış və məzun olan 12), 4 kateqoriya üzrə keçirilən 31 fokus-qrup dəyərləndirmə isə ümumilikdə 43 sualdan ibarətdir. Suallar aşağıdakı istiqamətlər üzrə olub:

### ANKET SORĞUSU:

- Sorğuda iştirak edənin cinsi
- Sorğuda iştirak edən tələbənin təhsil səviyyəsi
- TTKF haqqında məlumatı haradan əldə etmisiniz?

- TTKF-nin sosial şəbəkə hesabları barədə məlumatlısınızmı? Məlumatlısınızsa, daha çox hansından yararlanmısınız?
- Sizə hansı hal üzrə möhlət dövrü verilmişdir?
- Elektron müraciətlə bağlı hər hansı bir çətinliklə üzləşmisinizmi?
- Sistemin səmərəliliyi sizi qane edirmi?
- TTKF-nin əlçatanlığını və müraciət olunmasında bərabər imkanların yaradılmasını necə qiymətləndirirsiniz?
- Rəsmiləşmə prosesində hər hansı problemlə qarşılaşmısınızmı? Bu problem haradan qaynaqlanmışdır?
- TTK üzrə geri ödəniş dövrü aktivləşmişdirmi?
- Geri ödəniş ilə bağlı hər hansı güzəştdən yararlana bilmisinizmi?
- Sizə hansı hal üzrə möhlət dövrü verilmişdir?
- Siz hər hansı tanışınıza TTKF-yə müraciət etməyi tövsiyə edərdinizmi?
- TTKF-nin fəaliyyətini necə dəyərləndirirsiniz?

## FOKUS-QRUP İŞTİRAKÇILARI ÜÇÜN ÜNVANLANAN SUALLARIN BƏZİLƏRİ AŞAKIDAKILARDIR:

- Təhsil Tələbə Krediti Fondu barədə məlumatı hardan və necə əldə etmisiniz?
- Şəffaflığı təmin etmək məqsədi ilə müraciət və rəsmiləşmə elektron informasiya sistemi vasitəsi ilə həyata keçirilir. TTK üçün müraciət edərkən hər hansı çətinlik və ya problemlə qarşılaşmısınızmı? Belə bir hal yaşanıbsa bu nə ilə bağlı olub?
- TTK-nın 2 növü mövcuddur. İllik faiz dərəcələri - sosial kredit üzrə 2%, standart kredit üzrə 6%-dir.  Sizcə faiz dərəcələri qənaətbəxşdirmi?

- TTK-dan ölkə daxilindəki təhsil müəssisələrində təhsil alan hər bir Azərbaycan Respublikasının vətəndaşı istifadə edə bilər. Amma müəyyən tələb və şərtlər mövcuddur. Bu cür tələblərdən razısınızmı? Nəyin dəyişməyini istərdiniz və ya nələri təklif edərdiniz?
- Fond tərəfindən kreditdən istifadə edən tələbələr üçün bir sıra güzəştlər tətbiq edilir. Tətbiq edilən güzəştləri necə qiymətləndirirsiniz?
- TTK üzrə borcun hansı hallarda sığortalanmasından məlumatınız varmı?
- Maddi çətinliyiniz olmadığı halda TTK-dan yararlanardınızmı?
- Təsəvvür edin (övladınızın) təhsiliniz üçün müəyyən kapital toplamısınız. Amma TTKF-nin dəstəyindən istifadə etdikdən sonra həmin kapitalınıza qənaət etmiş olursunuz. Bəs TTK-dan yararlandıqdan sonra o kapitalı hara xərcləyərsiniz?
- TTK-dan yararlanmış tələbələrin akademik göstəricilərində hansı dəyişikliklər olub?
- Təhsil müəssisəsi ilə Təhsil Tələbə Krediti Fondu arasındakı əməkdaşlıq hansı səviyyədədir? Bunu daha da inkişaf etdirmək üçün nələri təklif edərdiniz?
- Təhsil Tələbə Krediti Fondunun fəaliyyətinin şəffaflığını, təhsil tələbə kreditinin əlçatanlığını necə dəyərləndirirsiniz?
- TTK sözünü eşitdikdə ilk olaraq ağlınza nə gəlir?  Təhsil kreditinin bank kreditindən fərqi nədir?
- Təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə yaradılan Təhsil Tələbə Krediti Fondunun təklif etdiyi dəstək mexanizimindən daha çox tələbələrin istifadə edə bilməsi üçün hər hansı təklifiniz varmı?

## SAHƏ İŞİ

Sorğu 2023-ci ilin noyabr ayının 3-dən dekabr ayının 12-dək olan dövrdə aparılıb. Sorğu və fokus-qrup dəyərləndirmələr Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Şəki, Mingəçevir, Naftalan şəhərlərində, Quba,

Şamaxı, Cəlilabad, Salyan, Saatlı, Bərdə, Şəmkir, Qazax, Qəbələ, Zaqatala, Qax və Xaçmaz rayonları da daxil olmaqla, bütün ölkə ərazisini əhatə edib. Anket sorğusunun orta keçirilmə müddəti 15 dəqiqə, fokus-qrup dəyərləndirmələr isə ən azı 1 saat təşkil edib.

## ETİK PRİNSİPLƏR

Respondentlər sorğuda iştirakın könüllü olması, istənilən anda sorğunu dayandırmaq və hər hansı suala istədikdə fikir bildirməmək hüququnun olması barədə ətraflı məlumatlandırılıblar. Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

## TƏLİMAT

Sorğunun keçirilməsində 20 intervüyer (müsahibə alan), 4 koordinator və 2 layihə meneceri iştirak edib. Müsahibə alanlar işə başlamamışdan əvvəl qaydalar ilə tanış edilib, təlimatlandırılıblar. Keçirilən sorğunun məqsədi, respondentlərə ünvanlanan suallar və respondentin seçilməsi üsulu barədə geniş izahatlar verilib.

## MƏLUMATLARIN İŞLƏNMƏSİ VƏ TƏHLİLİ

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram - SPSS (Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi)) vasitəsilə təhlil edilib. Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün $X^2$ və korrelyasiya testindən istifadə edilib.

# İCTİMAİ RƏY SORĞUSUNUN ƏSAS NƏTİCƏLƏRİNİN TƏHLİLİ

(TTK-dan yararlanan və hal-hazırda təhsil alan tələbələr, həmçinin TTK-dan istifadə edib və məzun olan şxslər)

- Sorğu zamanı gender balansı nisbətən qorunub – rəyi soruşulanların 5 min 878 nəfəri qadın (58%), 4 min 160 nəfəri isə kişidir (42%). **(Diaqram 1)**

- TTK-dan yararlanan və hal-hazırda təhsil alan 10038 tələbədən 7055 nəfəri (70.2%) bakalavriat, 2426 nəfəri (24.2%) magistratura, 510 nəfəri (5.1%) orta ixtisas təhsilində, 47 nəfəri (0.5%) isə peşə təhsili alan tələbələrdir. **(Diaqram 2)**

- "TTKF haqqında məlumatı haradan əldə etmisiniz?" sualına TTK-dan yararlanan və hal-hazırda təhsil alan tələbələrin cavabları müxtəlif olub. Onların böyük əksəriyyəti, yəni 3583 nəfəri Fond haqqında məlumatı təhsil aldığı müəssisədən, o cümlədən Fond rəsmilərinin təhsil müəssisəsində keçirdiyi görüşlərdən əldə etdiyini bildirib. 2359 tələbə dost-tanışlarından, 1986 nəfər TTKF-nin sosial şəbəkələri hesablarından, 970-i isə KİV-dən məlumat aldığını deyib. Fond barədə 561 tələbə Elm və Təhsil Nazirliyinin rəsmi internet saytından xəbərdar olduğu halda, 309 nəfər bu informasiyanı Fond tərəfindən gələn SMS və ya zəng vasitəsi ilə, həmçinin internetin köməkliyi ilə, 218 tələbə isə ictimai nəqliyyatdakı reklam vasitəsi ilə əldə etdiklərini vurğulayıblar. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 3)**
- TTK-dan yararlanan və məzun olan şəxslərin də cavabı demək olar ki, bənzər olub. 2 min respondentdən 984 nəfəri Fond haqqında məlumatı təhsil aldığı müəssisədən, 518-i dost-tanışlarından, 213 sorğu iştirakçısı TTKF-nin sosial şəbəkələri hesablarından, 187 nəfər isə KİV-dən məlumat aldığını söyləyib.

Rəyi soruşulanların 2.8 faizi (57 nəfər) Elm və Təhsil Nazirliyinin rəsmi internet saytından, 1.7 faizi (34 nəfər) ictimai nəqliyyatdakı reklamdan və 15 nəfər Fond tərəfindən gələn SMS və ya zəng vasitəsi ilə bilgi əldə etdiyini diqqətə çadırıb. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 4)**

Bu nəticələr onu deməyə əsas verir ki, TTKF-nin təbliğat-təşviqat və maarifləndirmə tədbirlərinin əsasən aşağıda qeyd olunan istiqamətlər üzrə reallaşdırılması məqbuldur;

Daha geniş auditoriyanı əhatə etmək üçün xəbərlərin, eləcə də tanıtım və məlumat xarakterli video çarxların, informasiyaların ölkədə fəaliyyət göstərən təhsil ocaqlarında, KİV və Fondun rəsmi sosial şəbəkə hesabları üzərindən həyata keçirilməsi daha məqsədə uyğundur. Bundan başqa məlumatlandırıcı lövhələr hazırlanaraq, Bakı şəhəri və respublikanın müxtəlif yerlərində, o cümlədən hazırlıq kursları, müvəkkil bankın filiallarında və şəhərdaxili ictimai nəqliyyatlarda yerləşdirilməsi daha geniş auditoriyanı məlumatlılığına gətirib çıxara bilər.






- Sorğu zamanı məlum oldu ki,TTK-dan yararlanan və hal-hazırda təhsil alan 10038 tələbədən 4126 nəfəri TTKF-nin sosial şəbəkə hesablarının mövcudluğundan xəbərsizdir. 5912 tələbə isə məlumatlı olduğunu bildirib. Onlardan 3980 nəfəri Fond haqqında hər hansı bir informasiyanı "Instagram", 2027-si isə "Facebook" vasitəsi ilə əldə etdiyini qeyd edib. TTKF barədə xəbər və yenilklərlə tanış olmaq üçün "YouTube" (1096 nəfər), "Telegram" (464 nəfər) və "Linkedin"ə (262 nəfər) daxil olanlar da var. Lakin bu platformalardan istifadə edənlərin sayı azdır. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 5)**
- TTK-dan yararlanan və məzun olanlardan 913 nəfər "TTKF-nin sosial şəbəkə hesabları barədə məlumatlısınızmı?" sualına "Xeyr" deyə cavab verib. 54.6 faizdən 16.9 faizi, başqa sözlə desək 340 nəfəri TTKF ilə bağlı yenilikləri "Facebook", 741 nəfəri "Instagram", 228 nəfəri "YouTube", 87 nəfəri "Telegram", 36 nəfəri isə "Linkedin" vasitəsi ilə xəbərdar olduğunu qeyd edib. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 6)**

Əldə olunan nəticə onu deməyə əsas verir ki, TTKF özünün sosial şəbəkə hesabları ilə bağlı maraqlı və dolğun videoçarx hazırlamalı, onu təhsil ocaqlarının sosial şəbəkələrində və ya tanınmış blogerlərin rəsmi səhifələrində yayımlayıb, tanıtdırılmalıdır. Çünki sosial şəbəkələr bizim fiziki dünyamızın virtual formasıdır. Belə olduğu təqdirdə təqdim ediləcək hər bir informasiyadan daha çox şəxs

məlumatlı olacaq. Yeniliklər və xəbərləri daha çox "Instagram""Facebook" üzərindən paylaşım etmək daha məqsədə uyğundur.

TTKF-nin sosial şəbəkə hesabları barədə məlumatlısınızmı? Məlumatlısınızsa, daha çox hansından yararlanmısınız?

10 038 ответов






- Sorğuda iştirak edənlərin böyük əksəriyyəti elektron müraciət zamanı heç bir çətinliklə qarşılaşmadığını bildirib. 9844 tələbə prosedurun şəffaflığından və rahatlığından məmnunluğunu dilə gətirib. 1.9 faiz, başqa sözlə desək 190 tələbə isə bunun əksini düşünür. Onların da əksəriyyəti müvafiq məlumatların təhsil müəssisəsi tərəfindən gec təsdiq olunmasından gileyləniblər. Respondentlərin bəziləri isə elektron sistemdə baş verən texniki nasazlıqdan şikayətçi olublar. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 7)**

Dünyanın başqa ölkələrində də bu sistem var, amma Azərbaycandakı qədər asan, əlçatan deyil. Fondun şərtləri çox sadədir. Araşdırma zamanı o da müəyyən olunub ki, tələbə TTK-dan yararlanmaq üçün müraciət və ya sənədləşmə zamanı hər hansı problem və ya çətinliklə qarşılaşarsa, ona təhsil aldığı müəssisədə çalışan müəllimlər köməklik göstərirlər. Müraciətin elektron formada olması, maddi vəsaitin müraciət edənə deyil, birbaşa təhsil ocağının

hesabına köçürülməsi əla təşəbbüsdür. Bu, şəffaflığın göstəricisdir.




- Təhsil elə bir sahədir ki, daim təkmilləşmə və hərəkət tələb edir. Təhsil Tələbə Krediti Fondunun yaradılması da məhz bu ideyaların davamıdır. Bu ideyanın uğurlu və dinamik inkişaf üçün həm peşəkar komandanın, həm də müasir standartlara cavab verən innovativ sistemin olması vacibdir. Bu məqsədlə 10038 tələbədən sistemin səmərəliliyi ilə bağlı fikirlərini öyrəndik. Respondentlərdən 9978 nəfəri sistemin səmərəliliyi və məqsədyönlüyündən razı qaldığını qeyd edib. Amma 0.6 faiz, yəni 58 tələbə bu suala “XEYR” deyə cavab verib. Səbəbini soruşduqda onlar fikirlərini bu cür ifadə ediblər. Ətraflı diaqramda

qeyd olunub. **(Diaqram 8)**




- Təhsil Tələbə Krediti Fondunun yaradılmasında məqsəd təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılması və təhsilin əhatə dairəsinin genişləndirilməsidir. Sorğuda iştirak edən 10038 tələbədən 9981 nəfəri, yəni 99.4 faizi TTKF-nin əlçatanlığını və müraciət olunmasında bərabər imkanların yaradılmasını qənaətbəxş hesab etdiyi halda, 56 tələbə (0.6%) bunun əksini düşünür. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 9)**

Təhsil haqqını ödəyə bilməmək qorxusu səbəbindən ixtisas seçimi zamanı bəzən tələbələr bacarıqlarını tam ortaya qoya biləcəkləri ixtisası deyil, ödənişi az olan ixtisası seçirlər. Artıq bu problem geridə qalıb. Təhsil Tələbə Kredit Fondu təhsil haqlarını birdəfəlik ödəməkdə əziyyət çəkən və onlara müraciət edən tələbələrə yardımcı olur. Araşdırmanın nəticəsi də onu deməyə əsas verir ki, tələbələr üçün yeni imkanlar təklif edən Fondun bu istiqamətdə gördüyü işlər yüksək qiymətləndirilir və təqdir olunur.




- TTK sosial baxımdan həssas ailədən olan tələbələrlə yanaşı, həm də akademik göstəricisi yüksək olan tələbələrə çox böyük dəstək olacaq. Amma bəzən tələbələr texniki problem səbəbindən bu kreditlərdən yararlana bilmirlər. TTK-dan yararlanan və hal-hazırda təhsil alanlardan 81 nəfər (0.8%) müvvəkil bankın üztanıma sistemindən və birdəfəlik şifrənin (OTP kod) qısa müddətli göndərilməsindən şikayətçi olmaqla yanaşı, həmçinin kredit məbləğinin universitetə vaxtında köçmədiyini qeyd edib. 154 tələbə, yəni rəyi soruşulanların 1.5 faizi isə rəsmiləşmə zamanı təhsil aldıqları müəssisə tərəfindən problemlə qarşılaşdığını dilə gətirib. 53 nəfər Fonddan geri dönüşün gec olduğunu, 73 tələbə isə notariatda çətinliklə üzləşdiyini diqqətə çatdırıb. Rəsmiləşmə prosesində 9689 nəfər (96.5%) hər hansı problemlə qarşılaşmadığını bildirib. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 10)**
- TTK-dan yararlanan və məzun olanlardan 1971 nəfər (98.1%) rəsmiləşmə zamanı heç bir problemlə üzləşmədiyini dilə gətirib. 18 nəfər (0.8%) müvəkkil bank, 13 nəfər (0.8%) təhsil aldıqları müəssisə, 3 nəfər TTKF (0.1%), 3 nəfər isə notariatda (0.1%) çətinliklə qarşılaşdığını bildirib. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 11)**







- Rəsmiləşmə müddətinin qısa və asan həyata keçdiyini deyən 9899 tələbə şəffaflıqdan razı qaldığını qeyd edib. 137 nəfər, başqa sözlə 1.4 faiz tələbə rəsmiləşmə zamanı gecikmələrin olduğunu bildirib.

Daha çox dayanıqlı internetin (bölgələrdə) olmamasından, müvəkkil bank tərəfindən müvafiq link və birdəfəlik şifrənin (OTP kod) gec göndərilməsindən, eləcə də lazımi məlumatların təhsil aldıqları müəssisə tərəfindən vaxtında təsdiq edilməməsindən, bəzən isə məlumatların düzgün qeyd olunmamasından narazılıqlarını ifadə ediblər. Üzləşdikləri problemlərə görə TTK-dan yararlana bilməmələrindən məyus olduqlarını deyiblər. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 12)**

- Təhsil tələbə kreditləri ali təhsilin əhatəliliyini və əlçatanlığını artırmaqla bərabər, rəqabətliliyin də gücləndirilməsinə hədəflənib. TTK-dan yararlanan və məzun olanların da böyük əksəriyyəti, yəni 99.2 faizi (1993 nəfər) rəsmiləşmə müddətinin operativ, dəqiq, şəffaf və qüsursuz həyata keçirildiyini vurğulayıb. 16 nəfər (0.8%) isə onların bu fikirləri ilə razılaşmayıb. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 13)**

Hazırda istər müraicət, istərsə də rəsmiləşmə zamanı hər hansı bir problemin yaşanmaması üçün müəyyən işlər görülür. Sistemin təkmilləşdirilməsi, əlçatanlığın və məmnuniyyətin daha da artırılması istiqamətində müvafiq tədbirlər reallaşdırılır.






- TTK-dan yararlanan və hal-hazırda təhsil alan 10038 tələbə arasında keçirilən sorğu zamanı onların 9935 nəfəri Fondun fəaliyyətindən razı qaldığını və dost-tanışlarına da tövsiyə edəcəyini bildirib. Onların fikrincə, Təhsil Tələbə Krediti Fondunun yaradılması olduqca mütərəqqi addımdır, gənclərin təhsilə əlçatanlığının təmin olunmasına xidmət edən dövlət dəstəyidir. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 14)**

- TTK-dan yararlanan və məzun olanların 98.6 faizi yəni 1980 nəfər Tələbə Təhsil Kredit Fondunun yaradılmasından sonra həssas əhali qrupuna aid olan, eyni zamanda universitetdə ən yüksək akademik göstəricisi olan ödənişli əsaslarla qəbul olunan tələbələrə təhsillərini davam etdirməyə münbit şərait yaratdığını deyib. Kredit verilən zaman heç bir zəmanət və girovun tələb olunmadığını da xatırladan respondentlər bu və digər müsbət səbəblərə görə, dost-tanışlarına, həmçinin yaxınlarına TTK-dan yararlanmalarını tövsiyə etdiklərini və edəcəklərini bildiriblər. Çünki, Fondun sayəsində yüksək faizli kreditlərdən azad olunublar. Ətraflı diaqramda qeyd olunub.

**(Diaqram 15)**







- Sorğu zamanı müəyyən olundu ki, rəyi soruşulanların böyük əksəriyyəti TTKF-nin fəaliyyətini qənaətbəxş hesab edir. Bu da onu deməyə əsas verir ki, müasir dövrdə ölkədə səmərəli və dayanıqlı iqtisadi inkişafın təminatçısı olan təhsil sisteminin maliyyələşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, 10038 respondentdən 9996 nəfəri, yəni 99.6 faiz tələbə Fondun təhsilin inkişafına əhəmiyyətli dərəcədə təsir etdiyini qeyd edib. 42 nəfər isə bu fikrin əksini düşünür. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 16)**

- Eyni sualı TTK-dan yararlanmış və məzun olan şəxslərə də ünvanladıq. Rəyi soruşulanların 99.6 faizi, yəni 2001 nəfər Təhsil Tələbə Krediti Fondunun (TTKF) yaradılmasını olduqca mütərəqqi, gənclərin təhsilə əlçatanlığının təmin olunmasına, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən müsbət addım adlandırdı. Onların fikrincə bu, təhsilə və gələcəyimizə göstərilən dövlət qayğısının təcəssümüdür. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 17)**

Sorğunun nəticələri, onu deməyə əsas verir ki, TTKF-nin yaradılması ali təhsilə və aztəminatlı təbəqədən olan gənclərə dövlət qayğısının bariz nümunəsidir. Bu ölkəmizdə təhsilin əlçatanlığının təmin edilməsi istiqamətində atılmış ən doğru addımdır.






- Həm sosial, həm də standart paketlər üzrə tələbələri daha yaxşı oxumağa sövq edəcək, bütövlükdə təhsilin keyfiyyətini stimullaşdıracaq bir sıra güzəştlər nəzərdə tutulub. Məsələn, tələbəyə müvafiq tədris semestri üçün götürdüyü kreditə görə faizin hesablanmaması, kreditin 50 və 25 faizi hissəsinin ödənişindən azad olunması və s. kimi güzəştlər nəzərdə tutulub. Sorğu zamanı müəyyən olundu ki, TTK-dan yararlanan və məzun olan 2009 nəfərdən 789-u götürdüyü krediti faizsiz ödəyəcək. 91 nəfər 25%, 58 nəfər isə təhsil müddətində aldığı tələbə kreditinin 50 faizi hissəsinin ödənişindən azad olunub. Sorğu zamanı TTKF-nin güzəştləri barədə məlumatsız olanlara da rast gəlindi. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 18)**




- Təbii ki, əgər kredit götürürsənsə, onu geri qaytarmaq barədə də düşünməlisən. TTK üzrə geri ödəniş dövrü 679 nəfərdə aktivləşib. 1136 nəfərdə isə əksinə güzəşt dövrü hələ davam edir. 119 nəfərə isə möhlət dövrü tətbiq edilib. Sorğuda iştirak edən 75 nəfərin cavabı isə aşağıdakı kimi olub. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 19)**




- TTK-dan yararlanan və məzun olan 2009 nəfərdən 1827 nəfərə möhlət dövrü verilməyib. 102 nəfər həqiqi hərbi xidmətdə, 12 nəfər isə analıq məzuniyyətindən olduğu üçün bu şansdan yararlanıb. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 20)**




- TTK-dan yararlanan və məzun olan 2009 nəfərdən 1135 nəfəri hələ ki, əmək və ya sahibkarlıq fəaliyyəti ilə məşğul deyil. Amma 867 respondent artıq müəyyən qurumlarda işə başladığını qeyd edib. Ətraflı diaqramda qeyd olunub. **(Diaqram 21)**




Tələbələrə təhsil haqlarının ödənilməsi məqsədi ilə verilən kreditlərin geri ödənişi dünyanın bir çox ölkələri ilə müqayisədə Azərbaycanda daha ürəkaçandır. Amerikada verilən kreditlərin geri ödənişi zamanı ciddi problemlər var. Sorğu zamanı o da məlum oldu ki, Azərbaycanda ödənişlə bağlı heç bir problem yoxdur.

# FOKUS-QRUP DƏYƏRLƏNDİRMƏNİN ƏSAS NƏTİCƏLƏRİNİN TƏHLİLİ

Qeyd olunduğu kimi, tədqiqat çərçivəsində məlumat toplama metodu olaraq dolğun və əhatəli müsahibələrdən də istifadə edilib. Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Şəki, Mingəçevir, Naftalan şəhərlərində, Quba, Şamaxı, Cəlilabad, Salyan, Saatlı, Bərdə, Şəmkir, Qazax, Qəbələ, Zaqatala, Qax və Xaçmaz rayonunda təşkil edilən 30 fokus-qrup dəyərləndirmədə ümumilikdə 680 respondent (TTK-dan yararlanan tələbələrin valideynləri, təhsil müəssisələrinin nümayəndələri və vətəndaşlar) iştirak edib ki, onların da bölgüsü aşağıdakı kimi olub;

- Təhsil tələbə krediti almış tələbələrin valideynləri - 220 nəfər
- Təhsil müəssisəsinin əməkdaşları - 192 nəfər
- Vətəndaşlar - 268 nəfər

Bütün müsahibələr müasir avadanlıqlarla təchiz edilmiş otaqlarda keçirilib. Etik prinsiplər gözlənilərək, hər bir müsahibədən öncə respondentdən onunla söhbətin videoyazısının aparılması üçün icazə alınıb. Müsahibələr başa çatdıqdan sonra videoyazı əsasında transkript hazırlanıb. Hesabatda müvafiq yerlərdə respondentlərin çıxışlarından sitatlar da təqdim edilib.

Onlar TTK barədə fikirlərini bölüşüblər, təhsildə əlçatanlığı təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsinin genişləndirməsi ilə bağlı təklif və rəylərini veriblər. Təhlilin təsvirinin ilkin mərhələsində hər bir sual üzrə müşahidə edilən əsas cavablar və səsləndirilən məqamların sürətli hesablanması aparılıb. Beləliklə, ümumilikdə respondentlər tərəfindən ən çox aşağıdakı məsələlərə toxunulub;

- Bölgələrdə maarifləndirmə işləri intensivləşdirilsin
- Standart təhsil tələbə kreditinin faizi aşağı endirilsin
- Qiyabi təhsil alanların da TTK-dan yararlanmasına şərait yaradılsın
- TTKF-nin fəaliyyəti müsbət qiymətləndirilib

- 680 vətəndaş arasında keçirilən 30 fokus-qrup dəyərləndirmə nəticəsində məlum olub ki, onların əksəriyyəti TTKF haqqında məlumatlıdırlar. Fond barədə məlumatı fərqli mənbələrdən əldə etsələr də, onun mövcudluğundan, fəaliyyətindən, iş prinsipindən

xəbərdar və məmnundular. Valideynlər TTKF haqqında məlumatı daha çox övladları vasitəsi ilə, övladlarının böyük əksəriyyəti isə təhsil aldıqları müəssisədən əldə ediblər. Onlar Fondun mövcudluğu və fəaliyyəti barədə informasiyanı semestr öncəsi müəllimlər tərəfindən və ya Fondun ali təhsil müəssisində keçirdiyi görüşlər zamanı xəbərdar olublar. Respondentlərin bir qismi isə KİV və sosial media vasitəsi ilə belə bir qurumun olmasından agah olub.

- Sorğuda iştirak edən hər bir vətəndaşın təhsil tələbə kreditindən istifadə edən tanışı və ya qohumu var. Onlar Fondun işini yüksək qiymətləndiriblər. Təhsil haqqını ödəməkdə çətinlik çəkənlər üçün əla fürsət olduğunu bildiriblər. “Müraciət forması olduqca rahat, şəffaf və asandır” deyən benifisarların əksəriyyəti müraciət zamanı qarşılaşdıqları bəzi çətinliklərdən də söz açıblar. Qeyd olunub ki, müvəkkil bank tərəfinədən tətbiq edilən üz tanıma əməliyyatı üçün xüsusi və müasir telefona ehtiyac var. Bəzi tələbələrin telefonları isə sadə və konfiqurasiyası müasir tələblərə cavab vermir. Bu baxımdan müraciət zamanı bəzi çətinliklər yaranır. Bankın göndərdiyi link bu cür telefonlarda açılmır. Təhsil tələbə kreditinə müraciət edənlərin çoxu müvəkkil bankın üz tanıma sisteminin ləğv olunmasını və ya bu prosedurun daha sadə bir əməliyyatla əvəz edilməsini təklif ediblər. Çünki bölgələrdə həm internet problemi var, həm də istifadə olunan əksər telefonlar müasir standartlara uyğun deyil. Onların fikrincə, bütün proses mərkəzləşdirilmiş qaydada icra edilsə, operativlik təmin olunmuş olar. Qeyd ediblər ki, tələbəyə təsdiq kodunun Fond tərəfindən təqdim edilməsi daha yaxşı olardı.
- Təhsil tələbə kreditinin 2 növü mövcuddur. Birinci növə az təminatlı ailələrdən olan tələbələr üçün nəzərdə tutulan sosial təhsil tələbə krediti (2%), ikinci növə isə standart təhsil tələbə krediti (6%) daxildir. Sorğu zamanı vətəndaşların böyük əksəriyyəti standart TTK-nın illik faiz dərəcəsinin 3 və ya 4 faizə qədər endirilməsini təklif ediblər. Səbəb olaraq bölgələrdə əmək haqlarının aşağı olması göstərilib. Bundan başqa, fokus-qrupda iştirak edənlərin 80 faizi xüsusi qayğıya ehtiyacı olanlar üçün faiz dərəcəsinin ümumiyyətlə ləğv edilməsini təklif ediblər.
- 680 nəfərin Fondun tətbiq etdiyi şərtlər və güzəştlər barədə də fikirlərini öyrəndik. Fərqli və maraqlı təkliflər səsləndirən də oldu, mövcud proseduru dəstəkləyənlər də. Respondentlər daha çox şəxsin TTK-dan istifadə edə bilməsi üçün şərtlərin bir az

yumşaldılmasını təklif ediblər. Onların fikrincə ÜOMG-nin 71-dən 65 bala, akademik borc (kəsir) məsələsinin isə ləğv edilməsi tələbələr üçün faydalı olacaq. Bu həm də Universitetlərin iqtisadi durumuna müsbət təsir edəcək. Müllələmlər isə bu fikirlə müxalifdirlər. Onların sözlərinə görə, ÜOMG-nin 71 baldan aşağı endirilərsə, universitetlərdə tələbə sayı artacaq, TTK-dan istifadə edənlərin sayında yüksəliş qeydə alınacaq, amma bunun, təhsilin keyfiyyətinə hər hansı bir müsbət təsiri olmayacaq.

a) ÜOMG-si 65-70 bal arası olan tələbələr üçün TTK-nın 3-cü növünün yaradılması istənildi. Qeyd olunudu ki, faiz dərəcəsi bu təbəqə üçün yüksək olsun və onlara bu kreditdən yararlanmaq üçün bir dəfə şans tanınsın.

b) Əgər bir ailədən 2 və daha artıq şəxs ödənişli təhsil alırsa, heç olmasa onlardan birinə sosial kreditdən yararlanması üçün güzəştin edilməsi yaxşı olardı. Və ya bir ailədən 2 və daha artıq şəxs standart TTK-dan faydalanıbsa, həmin tələbələrin faiz dərəcələri aşağı endirilsin. Bu, həm də həmin ailənin maddi rifahına bir növ dəstək olar. Bu fikirləri də fokus-qrup iştirakçıları səsləndiriblər.

c) Fokus-qrup iştirakçıları qeyd ediblər ki, xaricdə təhsil alan, eləcə də validenylərindən birinin xarici ölkənin vətəndaşı olan tələbələrin də TTK-dan istifadə edə bilməsi arzu olunandır. Onların fikrincə, ailədə valideynlərindən yalnız biri çalışan və ya valideynlərindən birini itirib, digər valideyni isə əmək fəaliyyəti ilə məşğul olan tələbələrə, eləcə də Qarabağ müharibəsi iştirakçılarının ailə üzvlərinə, övladlarına sosial TTK-dan yaralanması üçün şərait yaradılsın.

- Bildiyiniz kimi, bu təhsil krediti kommersiya məqsədi daşımır. Bu baxımdan, Fond tərəfindən kreditdən istifadə edən tələbələr üçün bir sıra güzəştlər tətbiq edilir. Məsələn: Normativ təhsil müddəti ərzində əlaçı olan tələbələrə götürülən kreditin 25/50 faizinin bağışlanması, təhsil müddəti başa çatdıqdan sonra tələbəyə işlə təmin olunması üçün 2 il güzəşt müddətinin verilməsi və s. Bu və digər güzəştlər barədə məlumatınız varmı? Bu güzəştləri necə qiymətləndirirsiniz? sualı bir çox valideynin üzündə təbəssüm yaratdı. Aydın oldu ki, onlar bu cür güzəştlərdən xəbərsiz idilər. Onların fikrincə bu və digər güzəştlər övladlarının dərslərini daha yaxşı oxumasını stimullaşdıracaq.

a) Sorğuda iştirak edən respondentlərin mütləq əksəriyyəti edilən güzəştlərdən məmnunluğunu dilə gətirib. Güzəştlər toplusunun genişləndirilməsini istəyənlər də olub. Ali təhsil ocağını xüsusi fərqlənmə ilə (ÜOMG-si 95 bal və yuxarı) başa vuranların, həmçinin məzun olduqdan sonra hansısa ucqar kəndə işləməyə gedənlərin (orada ən azı 10 il çalışması müqabilində) kreditdən azad olunması təklifi səsləndirilib. Bu, həm sağlam rəqabəti artırar, həm tələbələr üçün gözəl stimul olar, həm də bölgələrin sosial-iqtisadi inkişafına təkan verər. Belə praktika dünya təcrübəsində də var. Məsələn ABŞ-də dövlət yaxşı oxuyan tələbələr üçün bir sıra güzəştlər tətbiq edir. Bəzi ştatlarda təhsildə, elmdə yüksək nəticə əldə edən tələbələrə kreditlər bağışlanır.

b) Zərbəçilər üçün də xüsusi güzəştlər tətbiq edilsin. Təklif olaraq, sosial TTK-dan yararlanan və bütün tədris semestrlərində ÜOMG-si 85 bal və yuxarı olanlar TTK-nın 25 faizi, standart TTK-dan faydalanan və bütün tədris semestrlərində ÜOMG-si 85 bal və yuxarı olanlar isə TTK-nın 15 faizi hissəsinin ödənişindən azad olunması səsləndirildi.

c) Sorğu zamanı 2 illik möhlət müddətinin 5 ilədək uzadılmasını deyənlər də oldu, bunun ləğv edilməsini istəyənlər də. Qeyd olundu ki, TTK-dan istifadə edən və məzun olan şəxs krediti əmək fəaliyyətinə başladığı gündən etibarən ödəməyə başlasın. Çünki tələbə əmək fəaliyyətinə məzun olduqdan 1-2 ay sonra da başlaya bilər, bu 3-5 il ərzində də ola bilər.

- Aparılan araşdırma zamanı məlum olub ki, TTK-dan istifadə edən əksər tələbənin akademik göstəricisində müsbət dəyişikliklər olub. Bu bir növ onlarda məsuliyyət hissini oyadıb, həm də onlara stimul verib. Növbəti dəfə TTK-dan yararlanmaq, həmçinin tətbiq edilən güzəştlərdən faydalanmaq üçün tələbələr dərslərini daha böyük istək ilə oxuyur, imtahanlara əzmlə hazırlaşırlar. Müzakirələr zamanı o da qeyd olunub ki, maddi sıxıntıya görə təhsilini yarımcıq qoymaq istəyən tələbələrə də rast gəlinib. Amma Fond haqqında məlumat əldə etdikdən sonra onun dəstəyindən yararlanıb və təhsilini davam etdirən kifayət qədər tələbə olub. Hazırda onların akamedik göstəriciləri yaxşıdır. Onlar çalışırlar ki, universiteti əla göstəricilərlə bitirsinlər ki, mövcud güzəştlərdən yararlananlardan olsunlar.

a) Son zamanlar qiyabi təhsil alan tələbələrin sayında kəskin azalma müşahidə edilir. Onlardan da təhsil haqqını ödəyə bilmədiyi üçün tədrisini yarımçıq saxlayanlar da az deyil. Bu baxımdan 18-20 yaş aralığında qiyabi təhsil alanların və ya yaxşı oxuyan qiyabi tələbələrin (1-ci kurs 1-ci smestrdən sonra, ÜOMG-nin nəticəsinə əsasən) nəzərə alınması təklif olunur. Respondentlərin bir qismi əmək fəaliyyəti ilə məşğul olaraq qiyabi təhsil alanların da TTK-dan faydalana bilməsi üçün şəraitin yaradılması fikrini səsləndirdilər. Qeyd olundu ki, bu kateqoriyadan olanlar üçün faiz dərəcələri yüksək təyin edilsin.

b) Bundan başqa doktorantlar üçün də dəstək göstərmək olar. Təsəvvür edin, ilkin ali təhsil pilləsi sayılan bakalavrlar üçün kredit ayrılır, daha sonra magistraturada təhsil alanlar nəzər alınır. Amma bundan sonra doktorantlığı oxumaq istəyənlər üçün heç bir güzəşt edilmir. Təklif olunur ki, Fond dəstək mexaniziminin miqyasını daha da genişləndirməklə gələcək alimlərimizin yetişməsinə töhvə vermiş olar. Belə olduğu təqdirdə, həm ixtisaslı alimlərimizin xaricə getməsinin qarşısı alınar, həm də ölkədə ixtisasaşmış kadrların formalaşmasına zəmin yaranar. Doktorantlıq pilləsində təhsil alanlar üçün kreditlərin verilməsi nəzərdən keçirilməsə də, onlara başqa formada da dəstək durmaq olar. Məslən: Tədqiqat işlərinə maliyyə ayırmaq olar.

- Daha bir vacib məqam kredit məbləğinin sığortalanmasıdır. TTK üzrə borc hansı hallarda sığortalanır? sualına demək olar ki, iştirakçıların böyük əksəriyyəti cavab verə bilmədi. Onların bu barədə məlumatsız olduğunu nəzərə alaraq, moderator respondentlərin bu istiqamətdə suallarını cavablandırıb. Bildirilib ki, ölüm və əmək qabiliyyətinin tam və ya qismən itirilməsi (əlillik) hallarında TTK sığortalanır. TTK-nın sığortalanması kredit müqaviləsi rəsmiləşdirilən zaman həyata keçirilir. Sığorta haqqı kredit müqaviləsinə uyğun hesablanır və kreditin məbləğinə əlavə olunaraq sığorta müqaviləsində nəzərdə tutulmuş qaydada ödənilir. TTK-nın sığortalanması zamanı faydalanan şəxs qismində müvəkkil bank müəyyən edilir. Sığortalanan məbləğin dövlət tərəfindən ödənildiyi fokus-qrup iştirakçılarının diqqətinə çatdırılıb.
- “TTK-dan yararlandıqdan sonra təhsil üçün topladığınız kapitalı hara xərcləyərsiniz?” sualına fokus-qrup iştirakçılarının cavabı fərqli olub. Respondentlərin bəziləri övladını dil kurslarına, sertifikasiya

proqramlarına və ya magistraturaya hazırlıq kurslarına yazdırıb, həmin kapitalı tələbənin gələcəyinə - fərdi inkişafına xərcləyəcəyini bildirib. Bəziləri isə övladının təhsili üçün topladığı kapitalı kiçik biznesə (regiondakı valideynlər iri və ya xırda buynuzlu heyvanların alınmasına) yatırım edəcəyini vurğulayıb. “Gündəlik məişət və ərzaq xərclərimi qarşılayaram” fikrini söyləyənlərə də rast gəlinib. Bankda övladının adına hesab açıb, həmin kapitalı o hesaba yatırıb, övladı təhsilini bitirincə müəyyən qədər vəsaitin toplanmasını təmin etmək istəyən valideynlər də oldu. İştirakçıların bir qismi isə xarici ölkədə istirahət edəcəyini deyib.

- “Maddi çətinliyiniz olmadığı halda TTK-dan yararlanardınızmı?” fokus-qrup iştirakçılarının böyük əksəriyyəti suala “Bəli” deyərək cavab verib. Qeyd ediblər ki, TTKF ödənişli əsaslarla təhsil alan tələbələrin sosial qayğısını təmin etməklə bərabər, təhsil alan digər tələbələrin də bir çox məsrəflərini aradan qaldırmaqda mühüm rol oynayır. Bankların təqdim etdiyi islehlak krediti ilə Fondun təklif etdiyi təhsil kreditini müqayisə edən respondentlər bunun əla fürsət olduğunu deyiblər. Təhsil tələbə kreditinin istehlak kreditlərindən fərqini izah edib, TTK-nın kommersiya məqsədi daşımadığını vurğulayıblar. Əlavə ediblər ki, burada həm faizlər aşağıdır, həm də alınan kreditin geri qaytarılması ilə bağlı mexanizm olduqca əlverişlidir. Digər iştirakçılar isə səslənən fikirlərlə qismən razı olsa da, sadəcə borclanmaq istəmədiyini bildiriblər.

***Qeyd edək ki, Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Şəki, Mingəçevir, Naftalan şəhərlərində, Quba, Şamaxı, Cəlilabad, Salyan, Saatlı, Bərdə, Şəmkir, Qazax, Qəbələ, Zaqatala, Qax və Xaçmaz rayonlarında keçirilən 30 fokus-qrupda ümumilkdə 680 respondent iştirak edib. Yeni yaradılan və qısa müddətdə kifayət qədər mühüm işlərə imzan atan qurumun fəaliyyətini yüksək qiymətləndirən respondentlər ümidvardırlar ki, Fond gələcəkdə daha böyük layihələrə imza atacaq və fəaliyyət istiqamətini daha da genişləndirəcək.***

# KEYFİYYƏT ƏSASLI TƏHLİL

# EKSPERTLƏRLƏ KEÇİRİLƏN MÜSAHİBƏLƏRİN NƏTİCƏLƏRİ

Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən 20 ekspertlə qarşılıqlı diskusiya formatında keçirilən görüşdə tələbələrin mövcud sistemdən daha çox yararlana bilmələri üçün bir sıra maraqlı təkliflər səsləndirilib. Ekspertlər yeni dəyişikliklərin və yaradılan imkanların tələbələrin motivasiyasını daha da artıracağını, təhsilin keyfiyyətinə müsbət təsir edəcəyini bildiriblər. TTKF-nin sayəsində çox sayda gənc təhsilindən imtina etməyərək gələcəyini təmin etmək imkanı qazanıb deyən ekspertlər bildiriblər ki, təhsil tələbə krediti qarşılıqlı inam və tələbəlik dövründən sosial məsuliyyəti dərk etməyə kömək edəcək.

- Çox təəssüf ki, yeni tədris ili ilə əlaqədar tələbələrin kirayə ev tapmaq problemi əsas gündəm məsələlərindən biridir. Bu, mühüm bir problemdir. Neçə illərdir ki, davam edir. Doğrudur, bəzi universitetlərin yataqxanaları var, amma onların həcmi bütün tələbələri əhatə edəcək qədər böyük deyil. Bir sıra universitetlərin isə ümumiyyətlə tələbə yataqxanası yoxdur. Ona görə də, bölgələrdən paytaxtda təhsil almağa gələnlər Bakının müxtəlif yerlərində, müxtəlif qiymətlərə mənzil kirayələməli olur. Bu da əlavə məsrəflərə gətirib çıxarır. Fond tərəfindən mənzil kreditlərinin verilməsi gözəl təşəbbüs olardı. Bunun üçün mənzil sahibi ilə müqavilə imzalanmalıdır. Belə olduğu təqdirdə mənzilini kirayə verənlər də vergi ödəyəcəklər. Prosedurun şəffaflığı həm əmlak bazarının canlanmasına şərait yaradacaq, həm də kölgə iqtisadiyyatına qarşı mübarizəyə öz töhvəsini verəcək. Bundan başqa biznesmenlərə, iş adamlarına təklif olunsun ki, onlar müxtəlif mərtəbəli yataqxanalar inşa etsinlər. Yataqxana kompleksinin daxilində hər bir infrastruktur və müasir standartlara cavab verən avadanlıqlarla təchiz edilmiş xüsusi otaqlar, kitabxana, idman zalları, mağaza və s. yaratmaq olar. Bu, həm də tələbələri bəzi neqativ təsirlərdən uzaq tutmağa kömək edə bilər. Bu təşəbbüsdən ödənişli və ödənişsiz təhsil alan hər bir tələbə yararlana bilər. Amma bir şərtlə: Sosial həsas qrupa daxil olanlar, Universitetə yüksək balla daxil olanlar və təhsilində fərqlənən tələbələr prioritet olmalıdır. Bu həm imkansız ailələr, həm də istedadlı tələbələr üçün stimul olacaq.

- Bütün dünyada bu cür kreditlər təhsilin inkişaf etdirilməsində böyük rol oynayır. Ekspertlər bildirir ki, Təhsil Tələbə Krediti Fondu sayəsində hər il yüzlərlə tələbənin məhz təhsil haqqını ödəyə bilməməsinə görə təhsildən kənarda qalmasının qarşısı alınıb. Bununla yanaşı, "şərtləri daha da yumşaltmaq və kreditin daha əlçatan olması üçün müvafiq tədbirlərin görülməsi də arzu olunandır" deyən ekspertlər beynəlxalq təcrübədən də misal gətiriblər. Qeyd ediblər ki, əksər ölkələrdə faizlərin çox aşağı, müddətin uzun olduğu üçün kreditin qaytarılmasında çətinlik yaranmır. Adətən kreditin qaytarılmasına universiteti bitirdikdən 2 il sonra başlanılır, 5-7-10 ilə, bəzənsə 30 ilədək müddətdə qaytarılır. Onların qənaətincə, bu sahədə işin səmərəsini daha da artırmaq üçün standart təhsil tələbə kreditinin illik 6 faizdən 3 və ya 4 faizə endirilməsi yaxşı olardı.

- "TTK-nın verilmə şərtləri və tətbiq edilən güzəştlər qənaətbəxşdir" deyən ekspertlər bakalavriat pilləsində birinci tədris ilinin ilk semestrində təhsil alan tələbələrin hər birinin standart TTK-dan yararlana bilməsi üçün tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddinin 200 bal müəyyən edilməsi tövsiyə olunub.

- Kreditdən istifadə etmək üçün tələbənin akademik borcu (kəsiri) olmamalıdır. Ekspertlərin əksəriyyəti bu şərtin tətbiqindən məmnundular. Onlar düşünürlər ki, kəsir məsələsinin aktuallığı kreditdən yararlanan və ya faydalanacaq tələbənin təhsilə daha ciddi yanaşmasına, onun daha yaxşı oxumasına təkan verəcək. Yəni, təhsil tələbə kreditindən istifadə etmək istəyənlər daha yaxşı oxumalıdır. Ekspertlərin fikrincə qeyri-ixtisas fənlərindən kəsiri olan tələbələrin nəzərə alınması, onlara güzəştlərin edilməsi yaxşı olardı.

- TTK-nın verilməsində qiyabi, subbakalavr və doktorantların da nəzərə alınması və onların da bu imkandan istifadə edə bilməsi üçün müəyyən güzəştli şərtlərin tətbiq edilməsi tövsiyə olunub. Qeyd edilib ki, qiyabi təhsil alan tələbələrin əksəriyyəti işlədiyi üçün TTK-dan yararlana bilmir. Amma qiyabi təhsil alan tələbələrin heç də hamısı əmək fəaliyyəti ilə məşğul olmur. Ən azı işsiz olan və qiyabi təhsil alan tələbələrin nəzərə alınması fikri səsləndirildi.

- "TTK-nın xaricdə nüfüzlu universitetlərdə təhsil alan tələbələrə də şamil olunması yaxşı olardı" deyən ekspertlər həmin şəxslərlə imzalanacaq müqavilədə xüsusi bəndin qeyd olunmasını zəruri

hesab ediblər. Məsələn, xaricdə təhsil alan azərbaycanlı tələbələrə təhsilini başa vurduqdan sonra onlara ölkəyə qayıtmaq və burada 5-10 il işləmək müqabilində TTK verilsə yaxşı olar. Ekspertlərin fikrincə, xarici ölkələrdə Azərbaycan elmi üçün tədqiqat aparanlara mütləq şəkildə maliyyə yardımı edilməlidir. Hansısa bir layihə çərçivəsində tədqiqatlar Azərbaycan elminə daha çox fayda verə bilər.

- Tələbənin ümumi orta müvəffəqiyyət göstəricisinin (ÜOMG) 71 baldan aşağı endirilməməsi məsələsi ilə bağlı da təqribən eyni yanaşma var və demək olar ki, bütün ekspertlər bununla həmfikirdilər. Onlar düşünürlər ki, ÜOMG balının 71-dən aşağı endirilməsi dərslərini daha yaxşı oxuyanlar üçün haqsızlıq olar. Bundan başqa, bu, tələbələrdə tənbəlləşməyə gətirib çıxara bilər. Maraq üçün bildirək ki, ÜOMG Avropa təcrübəsində də əsas meyar olaraq götürülür.

- Tələbənin TTK-dan yararlana bilməsi üçün girov və ya zamin tələb olunmur. Amma valideynlərindən birinin xarici ölkənin vətəndaşı olması da problem yaradan amillərdən biridir. Yaxşı olardı ki, bu qaydaya da dəyişiklik edilsin. Valideynlərindən birinin xarici ölkənin vətəndaşı olması tələbənin TTK-dan istifadəsinə əngəl yaratmasın.

- Təhsil müəssisələri ilə TTKF arasındakı əməkdaşlıq hansı səviyyədədir? Bunu daha da inkişaf etdirmək üçün nələri təklif edərdiniz? Bu sualdan irəli gələn təkliflər TTKF-nin fəaliyyətini daha səmərəli etmək üçün mühüm istiqamətlərdən biridir. Əsas təkliflərdən biri ondan ibarətdir ki, Fond təhsil müəssisələri ilə olan əməkdaşlığının əhatəliyini daha da genişləndirsin. Bəzi universitetlərdə bəzən süni manelər, bəzən isə məsuliyyətsizlikdən problemlər yaradılır. Bürokratik əngəllərin qarşısı alınmalı, tələbələrin təhsil ala bilməsi üçün münbit şərait yaradılmalıdır. Bunun həyata keçirilməsi üçün TTKF tərəfindən monitorinq və araşdırmaların aparılması zəruridir.

- Hər bir şəxsin istədiyi ixtisasda, istədiyi universitetdə təhsil ala bilməsi üçün TTKF əla fürsətdir. Statisika göstərir ki, kreditdən yararlananların əksəriyyətinin akademik göstəricisində müsbət dəyişikliklər qeydə alınıb. Amma problemlərlə rastlaşanlar da olur. Təkliflərdən biri də TTK-dan yararlanan tələbələr haqqında məlumatın müəllimlərdə olmaması ilə bağlıdır. Yəni hesab olunur ki, tələbənin TTK-dan yararlandığını bilən müəllimlərin bir qismi

bundan tələbəyə qarşı təzyiq vasitəsi kimi istifadə edə bilər (qiymət yazmaq üçün rüşvət tələb edə bilər və s.).

- Tələbə təhsil haqqını ödəyə bilməyəndə bu, həm də universitet üçün də problem yaradır. Bu baxımdan kreditin tələbəyə yox, onun oxuduğu ali və ya orta ixtisas təhsil müəssisəsinə köçürülməsi gözəl təşəbbüsdür. Çünki təhsil krediti universitet üçün 70-80 faiz maliyyə dayanıqlığı deməkdir. Universitetlərin inkişafi və fəaliyyəti üçün əlavə stimuldur.

- Ekspertlərin fikrincə, TTKF ali təhsil müəssisələri arasında rəqabəti daha da gücləndirib, ali təhsil müəssisələrinin tədris proqramlarının əmək bazarının tələblərinə uyğun formalaşdırılmasına və tədrisin keyfiyyətinin artırılmasına ciddi zəmin yaradıb. Ən önəmli məsələlərdən biri də TTK-dan tək ali təhsil alan tələbələr deyil, eyni zamanda orta ixtisas və yüksək texniki peşə təhsili alan tələbələrin də yararlana bilməsidir.

- Ümumilikdə ekspertlər TTKF-nin fəaliyyətini yüksək qiymətləndirdilər. Bununla yanaşı, fəaliyyətinin daha da genişləndirilməsi üçün çoxlu imkanların olduğu diqqətə çatdırılıb. Bu məqsədlə, ekspertlər əlaçı tələbələr üçün xüsusi kredit kartlarının tətbiqini təklif ediblər. Bu kartlar vasitəsi ilə tələbələrin nahar, kitabxana, yataqxana, nəqliyyat və digər zəruri xərcləri qarşılana bilər.

- Fəaliyyətin genişləndirilməsi perspektivlərindən biri də əmək bazarındakı vəziyyətin nəzərə alınması ilə bağlıdır. Belə ki, əmək bazarı araşdırıla, təhlil edilə, ehtiyac duyulan, prioritet ixtisaslar müəyyən edilə bilər. Bunun nəticəsi olaraq, həmin ixtisaslar üzrə təhsil alan tələbələrə müəyyən güzəştlər edilə bilər. Misal üçün, TTKF bəzi özəl və dövlət şirkətləri ilə əməkdaşlığı çərçivəsində TTK-dan istifadə edən tələbələri həmin müəssisələrdə təcrübəyə cəlb edə, ardınca işlə təmin olunmasında köməklik göstərə bilər. Ekspertlərin fikrincə, bu çox gözəl nəticələr verə bilər. Yəni tələbə təhsilini başa vurduqdan sonra həm işlə təmin olunmuş olar, həm də TTK-nı geri qaytarmaqda heç bir problemi olmaz.

- Xüsusi istedada malik olan tələbələrin də diqqətdə saxlanılması tövsiyə olunub. Onlara xüsusi yanaşmanın tətbiq olunması istənildi. Misal üçün, startap təklif edən tələbələr fərqləndirilə, onlar təhsil ödənişindən azad edilə bilərlər. Onlara göstərilən yardım gələcəkdə

cəmiyyətimiz üçün dəyərli kadrlar ola biləcək istedadların bu mərhələdə elmi inkişaf yolundan uzaqlaşmasının qarşısını ala bilər.

- Ekspertlərin digər təklifi TTK-dan yararlanan və semestri əla nəticələrlə tamamlayan tələbərin xüsusi özünü inkişaf, ixtisasartırma və s. proqramlara cəlb edilməsi, yay məktəblərinə göndərilməsi ilə bağlıdır. Və ya xaricdə təcrübə keçmələri üçün zəmin yaradılmasıdır. Bu, həm onlar üçün stimul, həm də özünün inkişafına, həm də maddi durumu zəif olanlar üçün gözəl təşəbbüs olar. Bu, həm də tələbələr arasında sağlam rəqabəti artıracaq.

- Təhsil tələbə krediti sözünü eşitdikdə ilk olaraq ağlınza nə gəlir? Bu suala cavab verənlər məsələdən hali olduqlarını, ona görə də məhz tələbələr üçün, təhsilin daha əlçatan edilməsini təsəvvür etdiklərini bildiriblər. Adi bank kreditlərindən fərqi ondan ibarətdir ki, TTK-dan yalnız tələbələr istifadə edə bilər. Üstəlik bu kreditin qaytarılmasına dərhal deyil, təhsili bitirdikdən və işlə təmin edildikdən sonra başlanılır. Kreditin illik faizi də çox kiçikdir.

- Respondentlərin bəziləri Fondun adındakı “kredit” sözünün “Dəstək”, “Yardım”, “Kömək” sözləri ilə əvəz edilməsini təklif etsə də, böyük əksəriyyət bu ideyanın əleyhinədir. Adın olduğu kimi qalmasını məqsədəuyğun hesab edən ekspertlər qeyd ediblər ki, “kredit” sözü tələbələrdə məsuliyyət hissi yaradır ki, bu da öz növbəsində alınan TTK-nın geri ödənilməsinə xidmət edəcək.

- Bir maraqlı tendensiya mütləq nəzərə alınmalıdır. Əksər banklar, xüsusən təhsil ocaqlarının olduğu regionlarda yerləşən filiallar, təhsil ilinin başlaması ərəfəsində istehlak kreditinin faizlərini artırır. Məqsəd bəllidir. Amma TTKF haqqında məlumatı olan şəxs təbii ki, istehlak kreditindən deyil, Fondun təklif etdiyi dəstək mexanizimlərindən istifadə edə bilər. Ona görə də maarifləndirmə işlərini intensivləşdirmək və səmərəsini artırmaq lazımdır. Paytaxtda və bölgələrdə təşkil edilən maarifləndirmə tədbirlərini ali təhsil müəssisələri ilə yanaşı, orta məktəblərdə də keçirilməsi yaxşı olardı. Fondun nümayəndələrinin yalnız tələbələrlə deyil, eləcə də abituriyent və onların valideynləri, həmçinin 10-11-ci sinif şagirdləri ilə görüşlər keçirməsi müsbət nəticələr verə bilər. Abituriyent TTKF haqqında əvvəlcədən məlumatlı olarsa, ödənişli təhsildən çəkinməyəcək və istədiyi ixtisas üzrə təhsil almaq imkanı qazanacaq.

***Təhsil Tələbə Krediti Fondunun da konkret gözləntiləri var. Onlar istəyirlər ki, tələbələr yaxşı oxusunlar. Fondun marağı var ki, yaxşı göstəriciləri olan tələbəyə yatırım etsin, o yalnız dərsləri ilə məşğul olsun. Gələcəkdə isə iş tapıb krediti ödəyə bilsin. Unutmayaq ki, təhsilə yatırılan sərmayə uzun müddətə hesablanır. Yəni onun bəhrəsini illər sonra görə bilərik. Ekspertlər sonda qeyd ediblər ki, ölkəmizdə dövlət tərəfindən təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir.***

# TÖVSİYƏLƏR

İlk təhsil kreditləri 1920-ci illərdə Amerika Birləşmiş Ştatlarında yaranmışdır. 1920-ci illərdə öz təhsil xərclərini ödəmək imkanı olmayan bir çox insanın olduğu görülən bir dövrdü. Bu dövrdətəhsil maliyyələrinin yüksək olduğu və bir çox insanın öz təhsil xərclərini ödəmək üçün kifayət qədər maliyyə gücünün olmadığı görülürdü. Bu səbəblərlə, banklar və digər kredit müəssisələri təhsil xərclərini ödəmək üçün maliyyə dəstəyi təklif etmək məqsədilə təhsil kreditlərini

təqdim etməyə başlayıblar. Təhsil kreditləri ilkin olaraq fərdi banklar tərəfindən verilsə də, sonralar təhsilin genişlənməsi və yüksək təhsilin daha çox insan tərəfindən əlçatan olması ilə birlikdə, həmrəylik və dövlət proqramları da təhsil kreditlərinin inkişafına səbəb oldu. Hazırda ABŞ-də bununla Federal Agentlik məşğul olur. Agentliyin çox böyük dövriyyəsi var. Kreditlər 3 növdür: federal tələbə krediti, valideyn krediti və özəl kredit. Hər biri müxtəlif qruplara və müvafiq şərtlərlə verilir.

Bu gün artıq bir çox ölkədə təhsil tələbə krediti mövcuddur. Tələbə kreditləri hazırda Almaniya, Fransa, Böyük Britaniya və bir sıra digər Avropa ölkələri, postsovet məkanında isə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistan kimi ölkələrdə tətbiq edilir. Kreditlərin mənbəyi kimi adətən dövlət resursları çıxış edir, amma dövlətin stimullaşdırdığı özəl fondlar, banklar da bu prosesdə iştirak edə bilir.

Türkiyədə təhsil krediti proqramları 2002-ci ildə başlanmışdır. Türkiyədə təhsil kreditləri və təhsil maliyyələşməsi üçün bir neçə proqram və imkan mövcuddur. Ölkədə tələbələrə təhsil kreditləri, iqtisadiyyat Nazirliyi tərəfindən təyin edilmiş şərtlərə əsasən verilir.

Rusiya hökuməti isə 2007-ci ildə təhsilin maliyyələşməsi proqramını başlatdı. Bu proqramiri banklar və bir sıra digər maliyyə müəssisələri tərəfindən təşkil edilmişdir. Rusiyanın təhsil krediti proqramı, tələbələrə universitetdə oxumaq üçün maddi dəstək təmin etmək məqsədi ilə yaradılmışdır. Kredit şərtləri və geri ödəmə qaydaları Rusiyanın maliyyə siyasəti və bankların təyinatları ilə müəyyənləşir.

Azərbaycanda Təhsil Tələbə Krediti Fondu Prezident cənab İlham Əliyevin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanı əsasında Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılıb. Təhsil Tələbə Krediti Fondunun büdcəsinin əsas hissəsi dövlət büdcəsi hesabına maliyyələşir ki, bu da çox mühüm amildir.

Azərbaycanda son illərdə təhsil haqqını ödəyə bilməyən kifayət qədər tələbə ali təhsildən imtina edirdi. Aztəminatlı ailələrdə təhsil haqqının ödənilməsində yaranan çətinlik bəzən gənclərin ali təhsil almasına mane olurdu. Amma indi bu qəbildən olan şəxslərə çox aşağı faizlərlə kreditlər verilir. Bu da ali təhsilin əlçatınlığına, əhatə dairəsinin genişlənməsinə, eyni zamanda sosial vəziyyətindən asılı olmayaraq, hər kəsin bərabər şəkildə təhsil almasına və əmək bazarında özlərinə layiqli iş tapmasına imkan yaradır. Bundan başqa tələbələrin vaxtında

təhsil haqqını ödəmələri universitetlərin maliyyə dayanıqlılığına da müsbət təsir göstərəcək.

Tələbələr güzəştli kredit götürmək istəyirlərsə, onların təhsil göstəriciləri yüksək olmalıdır. Bu da təbii ki, Azərbaycan təhsilində keyfiyyət dəyişikliyinə səbəb olacaq.

Bakı, Sumqayıt, Gəncə şəhərlərində, Lənkəran, Şəki, Mingəçevir, Quba, Şamaxı, Cəlilabad, Salyan, Saatlı, Bərdə, Naftalan, Şəmkir, Qazax, Qəbələ, Zaqatala, Qax və Xaçmaz rayonlarında TTK-dan yararlanan və hal-hazırda təhsil alan, TTK-dan istifadə edib və məzun olan, TTK-dan faydalanan tələbələrin valideynləri, təhsil müəssisələrinin əməkdaşları, vətəndaşlarla keçirilən fokus-qrup dəyərləndirmələr, həmçinin müxtəlif sahələrdə fəaliyyət göstərən 20 ekspertlə təşkil edilən müfəssəl müsahibələrdə səslənən fikirlər onu deməyə əsas verir ki, TTKF kifayət qədər uğurlu layihədir. Verilən təkliflərin əksəriyyəti işdəki nöqsanların aradan qaldırılması deyil, işin daha səmərəli təşkil edilməsini nəzərdə tutur.

- TTKF tərəfindən mənzil kreditlərinin verilməsi gözəl təşəbbüs olardı. Bunun üçün mənzil sahibi ilə müvafiq müqavilə də imzalanacaq ki, bu da mənzilini kirayə verənlərin vergi ödəməsi demək olacaq. Prosedurun şəffaflığı həm əmlak bazarının canlanmasına şərait yaradacaq, həm də kölgə iqtisadiyyatına qarşı mübarizəyə öz töhvəsini verəcək.
- Tələbələr üçün müxtəlif mərtəbəli yataqxanalar inşa edilə bilər. Kompleksin daxilində hər bir şəraiti olan, müasir standartlara cavab verən avadanlıqlarla təchiz edilmiş xüsusi otaqlar, kitabxana, idman zalları, mağaza və s. yaradıla bilər. Bu təklifin reallaşması həm tələbələrin mənzil problemini həll edər, həm də tələbələri bəzi neqativ təsirlərdən uzaq tutmağa kömək edər. Bu təşəbbüsdən sosial həssas qrupa daxil olanlar, Universitetə yüksək balla daxil olanlar və təhsilində fərqlənən tələbələr yararlana bilərlər.
- Fond tərəfindən tələbələr üçün xüsusi kredit kartlarının təqdim olunması məqsədə uyğun olardı. Tələbələr bu kartlar vasitəsi ilə nahar, kitabxana, yataqxana, nəqliyyat və digər xərclərini qarşılaya bilərlər. Maraq üçün bildirək ki, Almaniya, Sinqapur, Cənubi Koreya, Polşa, Türkiyə kimi ölkələrdə təhsil alan tələbələr

müəyyən güzəştlərdən yararlana bilirlər. Azərbaycanda da belə bir təcrübədən istifadə etmək olardı.

- Son zamanlar qiyabi təhsil alan tələbələrin sayında kəskin azalma müşahidə edilir. Bu baxımdan 18-20 yaş aralığında qiyabi təhsil alanların və ya yaxşı oxuyan qiyabi tələbələrin (1-ci kurs 1-ci smestrdən sonra, ÜOMG-nin nəticəsinə əsasən) nəzərə alınmasında fayda var.

- Fond dəstək mexanizminin miqyasını daha da genişləndirməklə gələcək alimlərimizin yetişməsinə töhvə verə bilər. TTK-nın verilməsində doktorantların da bu imkandan istifadə edə bilməsi üçün müəyyən güzəştli şərtlərin tətbiq edilməsi tövsiyə olunandır. Ən azından onların tədqiqat işlərinə maliyyə vəsaiti ayırmaq olar. Belə olduğu təqdirdə həm ixtisaslı alimlərimizin xaricə getməsinin qarşısı alınar, həm də ölkədə ixtisaslaşmış kadrların formalaşmasına zəmin yaranar.

- Universiteti əlaçı kimi başa vuran tələbələrin, həmçinin təhsilini bitirib, hansısa ucqar kəndə işləməyə gedənlərin (orada ən azı 10 il çalışması müqabilində) kreditin ödənişindən azad edilməsi yaxşı olardı. Bu həm tələbələr arasında sağlam rəqabət yaratmaqla yanaşı, həm də təhsilin, eləcə də bölgələrin sosial-iqtisadi inkişafına töhvə olacaq. Belə praktika dünya təcrübəsində də var.

- Təhsil Tələbə Krediti Fondunun fəaliyyət sferasını genişləndirərək ali təhsil müəssisələrinin maddi-texniki bazasının zənginləşdirilməsinə də töhvə verməsi məqsədə uyğundur. Fond tərəfindən bölgələrdə və paytaxtda fəaliyyət göstərən təhsil müəssisələrində tələbələrin istifadəsi üçün nəzərdə tutulan lazımi texniki avadanlıqların alınması, müasir tədris otaqlarının qurulması və bu kimi digər işlərin görülməsi arzu olunandır.

- TTK-dan yararlanan və semestri əla nəticələrlə tamamlayan tələbələrə özünü inkişaf etdirmə, ixtisasartırma və s. proqramlarına cəlb edilməsi, yay məktəblərinə göndərilməsi və ya xaricdə təcrübə keçmələri üçün zəmin yaradıla bilər. Bu həm onlar üçün stimul, həm də maddi durumu zəif olanlar üçün gözəl təşəbbüs olar.

- Tələbənin ümumi orta müvəffəqiyyət göstəricisinin (ÜOMG) 71 baldan aşağı endirilməməsi məqsədəuyğundur. ÜOMG balının 71-dən aşağı endirilməsi dərslərini daha yaxşı oxuyanlar üçün haqsızlıq olar.  Bundan başqa bu, tələbələrdə tənbəlləşməyə gətirib çıxara bilər. Maraq üçün bildirək ki, ÜOMG Avropa təcrübəsində də əsas meyar olaraq götürülür.
- ÜOMG-si 65-70 bal arası olan tələbələr üçün TTK-nın yeni kateqoriyasını – növünü yaratmaq olar. Burada faiz dərəcəsi yüksək olsun və tələbələrə bu kreditdən yararlanmaq üçün bir dəfə şans verilsin.
- Zərbəçilər üçün də xüsusi güzəştlər tətbiq edilə bilər. Sosial TTK-dan istifadə edən və bütün tədris semestrlərində ÜOMG-si 85 bal və yuxarı olanlar TTK-nın 25 faizi, standart TTK-dan faydalanan və bütün tədris semestrlərində ÜOMG-si 85 bal və yuxarı olanlar isə TTK-nın 15 faizi hissəsinin ödənişindən azad oluna bilər.
- Kreditdən istifadə etmək üçün tələbənin akademik borcu (kəsiri) olmamalıdır. Bu şərtin tətbiqi kreditdən yararlanan və ya faydalanacaq tələbənin təhsilə daha ciddi yanaşmasına, onun daha yaxşı oxumasına təkan verəcək.
- TTK-dan yararlanmaq üçün edilən müraciət formasında bəzi dəyişikliklərin edilməsi arzu olunandır. Xüsusən müvəkkil bankın üz tanıma sistemi ləğv edilsə və ya bu başqa bir proseslə əvəzlənsə daha yaxşı olar. Bölgələrdə stabil internetin və hər kəsin müasir mobil telefona sahib olmadığını nəzərə alsaq, bunu smart telefon nömrəsinə adi 4 rəqəmli kodun göndərilməsi ilə əvəzləmək olar. Bu həm də operativlik baxımından gözəl təşəbbüsdür.
- Əgər bir ailədən 2 və daha artıq şəxs ödənişli təhsil alırsa, heç olmasa onlardan birinə sosial kreditdən yararlanması üçün güzəştin edilməsi yaxşı olardı. Və ya bir ailədən 2 və daha artıq şəxs standart TTK-dan faydalanıbsa, həmin tələbələrin faiz dərəcələri aşağı endirilə bilər. Bu, həm də həmin ailənin maddi rifahına bir növ dəstək olar.
- Ailədə validenylərindən yalnız biri çalışan və ya valideynlərindən birini itirib, digər valideyni isə əmək fəaliyyəti ilə məşğul olan tələbələrə, eləcə də Qarabağ müharibəsi iştirakçılarının ailə

üzvlərinə, övladlarına sosial TTK-dan yaralanması üçün şərait yaradılsın.

- Bakalavriat pilləsində birinci tədris ilinin ilk semestrində təhsil alan tələbələrin hər birinin standart TTK-dan yararlana bilməsi üçün tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddinin 200 bal müəyyən edilməsi faydalı ola bilər.
- Xüsusi istedada malik olan tələbələrin diqqətdə saxlanılması tövsiyə olunur. Onlara xüsusi yanaşmanın tətbiq olunmasında fayda var. Misal üçün, startap təklif edən tələbələr fərqləndirilə, onlar təhsil ödənişindən azad edilə bilərlər.
- Valideynlərindən birinin xarici ölkənin vətəndaşı olan tələbələrin də TTK-dan istifadə edə bilməsi arzu olunandır. Yaxşı olardı ki, bu qaydaya da dəyişiklik edilsin. Valideynlərindən birinin xarici ölkənin vətəndaşı olması tələbəni TTK-dan istifadəsinə əngəl yaratmasın.
- Xaricdə təhsil alan azərbaycanlı tələbələrə təhsilini başa vurduqdan sonra onlara ölkəyə qayıtmaq və burada 5-10 il işləmək müqabilində TTK verilsə yaxşı olar. Xarici ölkələrdə Azərbaycan elmi üçün tədqiqat aparanlara mütləq şəkildə maliyyə yardımı edilməlidir. Hansısa bir layihə çərçivəsində tədqiqatlar Azərbaycan elminə daha çox fayda verə bilər.
- Hazırda internet həyatımızın bir parçasına çevrilib. Bu baxımdan TTKF-nin mobil tətbiqinin yaradılması yaxşı olardı. Proqramı “AppStore” və ya “Google Play Market”dən yükləyən hər bir şəxs Fond haqqında məlumatları, yenilikləri və s. xəbərləri daha operativ əldə etmiş olacaq.
- TTKF bəzi özəl və dövlət şirkətləri ilə müqavilə imzalasa, TTK-dan istifadə edən tələbələri həmin şirkətlərdə təcrübəyə cəlb etsə, ardınca işlə təmin edə bilsə, bu çox gözəl nəticələr verə bilər. Həm tələbə təhsilini başa vurduqdan sonra işlə təmin olunmuş olar, həm də TTK-nı geri qaytarmaqda heç bir problemi olmaz
- Bölgələrdə maarifləndirmə məsələsi bir qədər zəifdir. Maarifləndirmə xarakterli görüşlər daha çox məktəblərdə, abituriyent və onların valideynləri üçün edilsin. Bu həm valideyni “təhsil haqqını ödəyə bilmirəm” yükündən azad edəcək, həm də

abituriyentin əlavə təzyiq altında deyil, rahat formada imtahanda iştirak etməsinə zəmin yaradacaq.

- Paytaxtda və bölgələrdə fəaliyyət göstərən təhsil müəssisələrində TTKF ilə bağlı bir güşənin yaradılması yaxşı olardı. Orada Fondun reklam lövhələri yerləşdirilə, monitorlarda həftədə ən azı iki dəfə olmaqla TTK-ya müraciət forması, qaydalar, güzəştlər və s. səpkili video çarxlar nümayiş etdirilə bilər.
- TTKF haqqında məlumatların daha geniş auditoriyanı əhatə etməsi üçün Fond maarifləndirmə tədbirləri ilə yanaşı həmçinin təbliğat-təşviqat işlərini intensivləşdirməlidir. Bunun üçün dövlət və özəl telekanallarda müxtəlif vaxtlarda və baxımlı verilişlərdə Fond haqqında video çarxların nümayiş olunması yaxşı olardı. Sosial şəbəkələrdə, xüsusən “Facebook” və “Instagram”da (rəyi soruşulanların əksəriyyəti “Facebook” və “Instagram”dan istifadə etdiyini bildirib) tanıtım xarakterli işlərin həyata keçirilməsində fayda var.
- Universitetlərdə bəzən süni manelər, bəzən isə məsuliyyətsizlikdən problemlər yaradılır. Bürokratik əngəllərin qarşısı alınmalı, tələbələrin təhsil ala bilməsi üçün münbit şərait yaradılmalıdır. Fond təhsil müəssisələri ilə olan əməkdaşlığının əhatəliyini daha da genişləndirməlidir. Bunun həyata keçirilməsi üçün TTKF tərəfindən paytaxtda və bölgələrdə fəaliyyət göstərən ali təhsil müəssisələrində mütəmadi olaraq monitorinqin aparılması zəruridir.
- Fondun adının dəyişdirilməməsi məqbuldur. “Kredit” sözü tələbələrdə məsuliyyət hissi yaradır ki, bu da öz növbəsində alınan TTK-nın geri ödənilməsinə xidmət edəcək.

Azərbaycanın 54 ali təhsil müəssisəsində 200 minə yaxın tələbə təhsil alır. Onların 60 faizi öz vəsaiti hesabına, yəni, ödənişli əsaslarla, 40 faizi isə dövlət vəsaiti hesabına oxuyur. Fondun əsas missiyası təhsil haqqını ödəməkdə çətinlik çəkən aztəminatlı ailələrdən olan tələbələrə uzunmüddətli güzəştli kreditlərin verilməsi vasitəsilə onlara ali təhsil

almaqda bərabər imkanların yaradılmasıdır. Təhsilin əlçatanlığı, funksionallığı baxımından fondun yaranması mütərəqqi addımdır.